Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

4
SENTYABR
2019-cu il

№ 155 (4053)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# DAĞLIQ QARABAĞIN AZƏRBAYCANLI İCMASI QARABAĞ ERMƏNİLƏRİNİ QONDARMA REJİMƏ TABE OLMAMAĞA ÇAĞIRDI

■ səh. 3 ■


1991-ci ilin 3 sentyabrında Naxçıvanda hakimiyyət dəyişikliyi və ümumazərbaycan siyasi proseslərinə təsir... ■ səh. 2 ■

Qondarma "DQR"in xaricdə pul tələsinə saldığı dairələr Almaniyada da var imiş... ■ səh. 5 ■

Azərbaycan-Türkiyə-Rusiya üçbucağı Ermənistanın hava üstünlüyü strategiyasını heçə endirir ■ səh. 9 ■

Kreml İrəvana 1 ay vaxt qoydu - Köçəryan buraxılmasa... ■ səh. 10 ■

SSRİ-nin Böyük Vətən Müharibəsi missiyasına Britaniya Baş nazirindən hörmətsiz yanaşma... ■ səh. 11 ■

Bakı Şəhər Baş Polis İdarəsinin ictimai sifarişə tam uyğun yeni əməliyyatı... ■ səh. 13 ■

Tələbələr faktoru kirayə mənzil bazarında "qiymət inqilabı" başladır ■ səh. 14 ■

İllər öncə sektaların apardığı təhlükəli hədələmə kampaniyaları sosial şəbəkələrdə geri qayıdır ■ səh. 15 ■




■ səh. 5 ■

## Paşinyanın «Amulsar kartı» ilə ABŞ-ı sıxmaq cəhdi əks-effekt verir - ikinci bəyanat...





**Azərbaycan jurnalist birliklərinin beynəlxalq təşkilatlara müraciəti - İkram Rəhimovun saxta və cinayət xarakterli əməlləri ilə Mətbuat Şurasının arxivində tanış ola bilərsiniz...** ■ səh. 2 ■

**Azərbaycanın siyasi sistemində uğursuz radikal bloklar və son həlqə kimi dağılan «AXH»...** ■ səh. 4 ■

**«Biz heç vaxt İrana qarşı getməyəcəyik» - Paşinyanın son bəyanatı «ABŞ-dan əlini üzməyi» kimi xarakterizə olunur...** ■ səh. 7 ■

■ səh. 8 ■
Əli Həsənov Əli Kərimliyə - "...məsuliyyətinizi, dövlət tərbiyəsini dərk etmədən atıb qaçdığınız Azərbaycanın..."



■ səh. 4 ■
Sosial islahatlar paketinin beynəlxalq əhəmiyyət aspektləri...



■ səh. 6-7 ■
Keçmiş qayınanası: "Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə!"



■ səh. 3 ■
Azərbaycanda "Coca-Cola"ya biznes meydanı açırıq, o isə separatçıların oyununda "oyunçuya" çevrilir...



■ səh. 12 ■
Problemli kreditlərin həllindən sonra da bank sektorunda vəziyyət dəyişmədi...



# 1991-ci ilin 3 sentyabrında Naxçıvanda hakimiyyət dəyişikliyi və ümumazərbaycan siyasi proseslərinə təsir...

**1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidilə mərhum prezident Heydər Əliyev Ali Məclisin sədri seçildi. Bununla da qədim Naxçıvanda milli qurtuluşun, milli dövlətçiliyin təməlləri atılmış oldu.**



XX əsrin 80-cı illərinə qədər dövlət idarəçiliyinin müxtəlif və məsuliyyətli mərhələlərində çalışmış mərhum Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsinə seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə idi. Dünyanın iki nəhəng dövlətindən biri kimi tanınan Sovet İttifaqının rəhbərlərindən biri olmuş, uzun illər Azərbaycan Respublikasına bacarıqla rəhbərlik etmiş Heydər Əliyevin Ali Məclisin sədri seçilməsi Azərbaycan milli dövlətçilik tarixinin ən mühüm hadisəsi,

## *Qabil Hüseynli: "Heydər Əliyevin sayəsində Naxçıvan həmin dövrün siyasi episentrinə çevrildi"*

Azərbaycan xalqının itməkdə olan ümidlərinin dirçəldilməsi və gələcəyə inamının artması baxımından möhtəşəm dönüş idi. Bu hadisənin ümumazərbaycan siyasi proseslərinə nə kimi təsiri oldu?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin vaxt Naxçıvanda hakimiyyət, demək olar, AXC tərəfdarlarının əlində idi: "Ancaq həmin gərgin etapda onlar da gördülər ki, Heydər Əliyevin təcrübəsinə böyük ehtiyac var. Doğru olaraq hesab edildi ki, onun təcrübəsindən yararlanmaqla daha irəli getmək mümkündür. Həmin dövrün hadisələrini analiz etdikdə məlum olur ki, heç də AXC-nin bütün tərəfdarları Heydər Əliyevin vəzifəyə gətirilməsini istəməyiblər. Ancaq Naxçıvan camaatı da yekdilliklə Heydər Əliyevin hakimiyyətə gəlməsini istəyirdi. Bütün bu amillər və Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində müstəqil dövlətçiliyimizin ilk təməli məhz Naxçıvanda qoyulmuş oldu. O vaxt "Sovet Sosialist Respublikası" sözü ilk dəfə olaraq Naxçıvanın adının əvvəlindən ləğv edildi. Tam Baltikyanı respublikalarla eyni zamana təsadüf edirdi. Azərbaycanın bugünkü dövlət bayrağı Naxçıvanda dalğalandı. Bir sözlə, Heydər Əliyevin sayəsində Naxçıvan həmin dövrün siyasi episentrinə çevrildi. Oradan baş alan siyasi dalğalar Bakını da bürüyə bilirdi. Həm də Azərbaycanın digər regionları da Heydər Əliyevi siyasi olimpin ən uca zirvəsində görmək istəyirdi. Bu dahi şəxsiyyətin Naxçıvan Ali Məclisinin sədri işlədiyi dönəmdə Azərbaycanın müstəqillik yoluna qədəm qoyması böyük rolu oldu. Naxçıvanın təcrübəsi əsasında Azərbaycan, bütövlükdə, SSRİ-nin tərkibindən çıxmaq haqda qərar qəbul etdi. Yəni bütün bu proseslər öz mənbəyini Naxçıvandan götürdü və bu, Heydər Əliyevin Ali Məclisin sədri olduğu dönəmdən sonra baş verdi".

Politoloqun sözlərinə görə, Naxçıvandan formalaşıb bütün Azərbaycana yayılan siyasi dalğalar ölkəmizin suverenliyi və müstəqilliyinin qazanılmasında böyük rola malik oldu: "Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar nəticəsində Azərbaycan Ali Soveti də cürətlənərək Azərbaycanın müstəqilliyi haqda əvvəlcə bəyanat, sonra isə Müstəqillik Haqda Konstitusiya Aktını qəbul etdi. Bütün bu hadisələr birbaşa mərhum Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri seçilməsi ilə bağlıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Nazir Vilayət Eyvazov Türkiyədə xüsusi magistr təhsilinə göndərilən 6 Azərbaycan polisi ilə ayrıca görüş keçirdi...



**Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında" 25 oktyabr 2011-ci il tarixli protokola əsasən, 2019-2020-ci tədris ilində Türkiyə Milli Polis Akademiyasının Polis Rəisləri Təlim Mərkəzində magistr təhsili almaq üçün Azərbaycan Polisinə 6 yer ayrılıb.**

Azərbaycan Respublikasının Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun göstərişinə əsasən, DİN-in "Avtomatlaşdırılmış kadr informasiya sistemi" vasitəsilə şərtlərə uyğun olaraq bakalavr ali təhsil dərəcəsinə malik, türk dilini yaxşı bilən, fiziki hazırlıqlı, geniş dünyagörüşlü, müasir informasiya texnologiyaları ilə işləməyi bacaran 6 əməkdaş seçilərək sənədləri qardaş Türkiyənin müvafiq təhsil müəssisəsinə göndərilib.

Bu münasibətlə seçilmiş namizədləri qəbul edən Daxili işlər naziri Vilayət Eyvazov onları təbrik edərək iki qardaş ölkənin daxili işlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olmasını məmnunluqla qeyd edib, təhsil alacaqları dövrdə türkiyəli həmkarlarının təcrübələrindən yararlanmağı, öz üzərlərində daim işləməyi, biliklərini və fiziki hazırlıq səviyyələrini artırmalarını tövsiyyə edib. O əmin olduğunu bildirib ki, təhsil alacaqları müddətdə onlar Azərbaycan Polisini, xalqımızı şərəflə təmsil edəcəklər.

***Baki-xeber.com***

# Azərbaycan jurnalist birliklərinin beynəlxalq təşkilatlara müraciəti - İkram Rəhimovun saxta və cinayət xarakterli əməlləri ilə Mətbuat Şurasının arxivində tanış ola bilərsiniz...

**Müraciətdə bildirilir ki, "Realliq.info" xəbər saytının təsisçisi İkram Rəhimov 2018-ci il oktyabrın 26-da Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanıb. O, başqalarına hədə gəlmək yolu ilə pul tələb etməkdə, bu cür qanunsuz tələblərini yerinə yetirməyənlər haqqında böhtan xarakterli yazılar yazıb ictimailəşdirməkdə ittiham olunub.**

Bakı Ağır Cinayətlər Məhkəməsi (BACM) İkram Rəhimova qarşı irəli sürülən ittihamları haqlı sayıb, 2019-cu il iyun ayının 12-də onun barəsində 5 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzası çıxarıb. Hazırda Bakı Apelyasiya Məhkəməsində İkram Rəhimovun şikayəti əsasında məsələ yenidən araşdırılır.



Narahatlıq doğuran haldır ki, bu gün ölkə içindəki bəzi siyasi qruplar, siyasiləşmiş jurnalist təşkilatları və KİV tərəfindən İkram Rəhimov və "Realliq.info" xəbər saytı ətrafında informasiya manipulyasiyası aparılır, onunla bağlı proseslər kontekstdən çıxarılır, məsələyə siyasi don geyindirilməsinə cəhd olunur. Hansı ki, İkram Rəhimovun həbs edilməsini şərtləndirən səbəblər arasında heç bir siyasi amil yoxdu Çox təəssüf ki, həmin qruplar qərəzli formada hazırladıqları yalançı informasiyalarla təkcə ölkə içərisində deyil, həm də beynəlxalq təşkilatlarda çaşqınlıq yaratmağa çalışır, nüfuzlu beynəlxalq jurnalist təşkilatlarını öz oyunlarına alət edir, bu qurumların reallığı əks etdirməyən bəyanatlar səsləndirməsinə nail olurlar.

Qeyd edilir ki, İkram Rəhimov və "Realliq.info" xəbər saytının fəaliyyətindən narazı

## *Müraciət müəllifləri "Bəzi siyasi qrupların, siyasiləşmiş jurnalist təşkilatları və KİV-in İkram Rəhimov və "Realliq.info" xəbər saytı ətrafında informasiya manipulyasiyası aparmalarının narahatlıq doğurduğunu" qeyd ediblər*

olan vətəndaşlar DTX və Bakı Ağır Cinayətlər Məhkəməsindən öncə Azərbaycan Mətbuat Şurasına (MŞ-yə) müraciət etmişlər. 2017-ci ilin avqust ayından 2017-ci ilin dekabr ayına qədər olan müddətdə ayrı-ayrı vətəndaşların, idarə və təşkilatlarda çalışan şəxslərin, sahibkarların şikayətləri əsasında MŞ-də "Realliq.info" xəbər saytı barədə 3 dəfə müzakirələr keçirilib. Müzakirələr nəticəsində müəyyən edilib ki, "Realliq.info" xəbər saytında dərc edilmiş və şikayət doğurmuş yazılarda Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarının bütün prinsipləri pozulub. Həmin dövrdə MŞ tərəfindən "Realliq.info" xəbər saytına və İkram Rəhimova müraciət edilərək, fəaliyyətində dönüş yaratması tövsiyə olunub. Təəssüf ki, "Realliq.info" xəbər saytı və İkram Rəhimov MŞ-nin bu cür tövsiyələrindən nəticə çıxarmayıb, özünün yanlış addımlarını davam etdirib. Bununla da Mətbuat Şurası vasitəsilə hüquqlarını bərpa edə bilməyən vətəndaşlar hüquq-mühafizə orqanlarına və məhkəmələrə müraciət edərək İkram Rəhimovun həbs edilməsinə nail olublar.

Həmin şikayətlər və şikayət doğuran yazılar bu gün Mətbuat Şurasının arxivində saxlanır. Həqiqəti bilmək istəyənlər müraciət edib həmin materialları, həmçinin, həbsdə olan, məhkumluq həyatı yaşayan ayrı-ayrı vətəndaşlara "Realliq.info" adından saxta jurnalist vəsiqəsi verilməsini əks etdirən nümunələri əldə edə, tanış ola bilərlər.

Düşünürük ki, obyektiv, qərəzsiz olanlar, Jurnalistlərin Etik Kodeksinə önəm verən təşkilatlar öncə baş verənləri dərindən araşdırmalı, nəticə çıxarmalı, sonra bəyanatlar səsləndirməlidirlər. Əks təqdirdə öz fəaliyyətlərini də şübhəyə almış olurlar. "Realliq.info" xəbər saytında dərc edilmiş bircə yazını oxumayan, İ.Rəhimovun "jurnalist fəaliyyəti" ilə tanış olmayan, ondan şikayət edən vətəndaşları dinləməyən beynəlxalq təşkilatların tələm-tələsik, əsaslandırılmamış açıqlamalar verməsi təəssüf doğurur və Azərbaycan jurnalistləri tərəfindən xoş qarşılanmır.

Müraciəti Beynəlxalq Avrasiya Mətbuat Fondu, Demokratik Jurnalistlər Liqası, "Ruh" AJMK, Jurnalistlərin Həmkarlar ittifaqı, CASCFEN, Parlament Jurnalistlər Birliyi (Tərəfsiz Jurnalistlər Birliyi), Jurnalist Araşdırmaları Mərkəzi, İƏT-ə Üzv Dövlətlərin Jurnalistlərinin Assosiasiyası, Hərbçi Jurnalistlər Birliyi imzalayıblar.

**Ermənistan KIV-ində yayılan məlumata əsasən, Azərbaycanın işğal edilmiş ərazilərindəki qondarma cinayətkar rejim "müstəqillik günü" adı altında növbəti təxribat xarakterli "tədbirlər" keçirməklə məşğuldur.**

# Dağlıq Qarabağın azərbaycanlı icması Qarabağ ermənilərini qondarma rejimə tabe olmamağa çağırdı

*"Yüz minlərlə azərbaycanlının qanı bahasına və etnik təmizləmə nəticəsində Qarabağda yaradılmış qondarma rejimin gələcəyi..."*



Cinayətkar hərbi xunta tərəfindən məsxərə xarakterli növbəti "müstəqillik günü tədbirləri"nin qeyd edilməsi bir daha təsdiq edir ki, Ermənistan və onun əlaltısı olan cinayətkar rejim münaqişənin sülh yolu ilə tənzimlənməsində maraqlı deyil və danışıqlara xələl gətirmək məqsədilə istənilən imkanı "hədər vermir".

Baki-xeber.com AZƏRTAC-a istinadən xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının ölkəmizin işğal edilmiş ərazilərindəki qondarma cinayətkar rejimin qeyd etdiyi "müstəqillik günü" ilə bağlı bəyanatında yer alıb.

İcma bəyan edir ki, Dağlıq Qarabağdan və işğal edilmiş digər ərazilərdən qovulmuş yüz minlərlə azərbaycanlının qanı bahasına və etnik təmizləmə siyasəti nəticəsində əldə edilmiş qondarma "müstəqillik" heç bir gələcək vəd etmir. Beynəlxalq təşkilatlar və dünya ictimaiyyətinin işğalın nəticələrini tanımadığı və erməni təcavüzünü pislədiyi bir şəraitdə qondarma cinayətkar xuntanın "müstəqillik günü" qeyd etməsi onun çıxılmaz vəziyyətdə olduğunun təcəssümüdür. Qondarma rejimin əsarəti altında çabalayan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni icmasından alət kimi istifadə etməklə cinayətkar xuntanın və onun havadarı olan Ermənistanın hansı "müstəqillik" ideyalarını tərənnüm etməsi gülünc vəziyyət doğurur. Ermənistan öz işğalçı siyasəti ilə özünü iqtisadi, siyasi və s. cəhətlərdən regionda inkişafdan geri salmaqla və özünü uçuruma aparmaqla kifayətlənməyərək, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasını aldadaraq öz məkrli siyasəti üçün istifadə etməkdə davam edir.

Erməni icması bu yalançı və saxta "matriks"dən azad olmalı və azərbaycanlı icma ilə bir yerdə Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ədalətli və daimi sülhün bərqərar olması üçün addım atmalıdır. Bu, yeganə çıxış yoludur.

Dünya ictimaiyyəti münaqişə üzrə danışıqlarda indiyə qədər daim konstruktiv mövqe göstərən regionun lider ölkəsi Azərbaycanın ədalətli mövqeyini də, təcavüzkar Ermənistanın atdığı addımları da yaxşı görür. Ermənistan və xüsusilə cinayətkar xunta rejimi vəziyyəti dəyərləndirərək nəticə çıxarmalı və atılan hesablanmamış addımlara görə məsuliyyət daşıdıqlarını dərk etməlidir. Təcavüzkar Ermənistan tərəfindən işğalın nəticələrini "möhkəmləndirmək" üçün atılan istənilən addım Ab initio beynəlxalq hüquqa ziddir və heç bir fayda verməyəcək. Azərbaycanın beynəlxalq tanınmış sərhədləri bərpa olunduqdan və ölkəmizin işğal olunmuş ərazilərindən qovulmuş yüz minlərlə azərbaycanlı geri qayıtdıqdan sonra iki icmanın sülh şəraitində birgə yaşayışını müzakirə etmək olar.

"Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq erməni icmasına səslənirik və onları tez bir zamanda əsarəti altında yaşadıqları qanunsuz cinayətkar rejimin nəzarətindən qurtulmağa və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində hər iki icmanın ədalətli və daimi sülh şəraitində birgə yaşaması üçün çağırışımızı qəbul etməyə dəvət edirik", - deyə bəyanatda qeyd edilir.

---

**Məlum olduğu kimi, Azərbaycanın sərinləşdirici içkilər bazarında geniş yer tutan "The Coca-Cola Company" Dağlıq Qarabağdakı qondarma rejimə maddi dəstək verir. Belə ki, "The Coca-Cola Company" separatçı rejimin Xocalıda keçirdiyi "Artsax Airfest" sərgisinə sponsorluq edib.**

# Azərbaycanda "Coca-Cola"ya biznes meydanı açırıq, o isə separatçıların oyununda "oyunçuya" çevrilir...

***Əli Orucov:** "Buna görə Azərbaycandan üzr istəmək əvəzinə, müxtəlif vasitələrlə bunu gizlətməyə çalışırlar"*




Şirkət bununla rəsmi Bakının icazəsi olmadan Azərbaycanın işğal altında olan ərazilərində fəaliyyət göstərmək qadağasını pozmaqla yanaşı, həm də qondarma rejimin təşkil etdiyi tədbiri maliyyələşdirib.

Azərbaycan bazarında hələ ötən əsrdən möhkəmlənən və ölkəmizdəki satış hesabına böyük gəlir əldə edən "The Coca-Cola Company"nin bu arzuolunmaz "xeyriyyəçiliyi" böyük təəssüf hissi yaradır.

Qeyd edək ki, "Coca-Cola" şirkəti bu xəbərlə bağlı açıqlama verib. Verilən məlumatda bildirilib ki, nə "Coca-Cola" şirkəti, nə də onun Ermənistandakı rəsmi tərəfdaşı olan "Coca-Cola Hellenic Bottling Company" şirkəti Dağlıq Qarabağ ərazisində heç bir ictimai tədbirə sponsorluq etməyib. Ancaq bununla bağlı internetdə yayılan videolar bunun heç də belə olmadığını göstərir. Şirkət isə hər vasitə ilə bunu ört-basdır etməyə çalışır.

Onu da qeyd edək ki, "Coca-Cola" şirkəti məhsullarının istehsalı, daşınması və satışını həyata keçirən 250 tərəfdaşı ilə 200-dən çox ölkədə təmsil olunur. Bu ölkələrdən biri də Azərbaycandır. Hansı ki, sözügedən şirkət 25 ildir Azərbaycanda fəaliyyət göstərir və bu müddət ərzində dəyəri yüz milyonlarla ölçülən gəlirlər əldə edib. Azərbaycan "Coca-Cola"ya geniş biznez meydanı, satış bazarı açdığı halda, bu şirkət işğal olunmuş ərazilərdə qurulan separatçı rejimə maliyyə dəstəyi verir. O baxımdan bunu ekspertlər necə dəyərləndirirlər?

*"Bununla bağlı müvafiq addımlar atılmalıdır"*

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, bu təəssüf doğurmaqla yanaşı, həm də rəzalətdir: "Belə hallar o cür tanınmış şirkətin nüfuzuna xələl gətirməklə yanaşı, digər məsələləri də özündə ehtiva edir. Belə görünür ki, "Coca-Cola" şirkəti Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik edir. Buna görə Azərbaycandan üzr istəmək əvəzinə, müxtəlif vasitələrlə bunu gizlətməyə çalışırlar. Halbuki, ortada bununla bağlı videolar, digər faktlar var. Bu şirkətin heç bir mənəvi haqqı yoxdur ki, Azərbaycana qarşı belə xoşagəlməz addım atsın. Ona görə də hesab edirəm ki, Azərbaycan tərəfi bununla bağlı "Coca-Cola" şirkətindən izahat tələb etməlidir. Lazım gələrsə, bu şirkətin məhsulları kütləvi şəkildə boykot edilməlidir. Statusundan asılı olmayaraq, heç bir xarici şirkətə işğal altında olan ərazilərimizdə qanunsuz fəaliyyətə icazə verilməməlidir. Onların hansısa fəaliyyəti diqqətdən yayınmamalıdır. O baxımdan hesab edirəm ki, bu çox təəssüf doğuran haldır. Bununla bağlı müvafiq addımlar atılmalıdır".

**Vidadi ORDAHALLI**

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin məlum sərəncamlarına əsasən, sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb. Eyni zamanda, dövlət sektorunda çalışanların əməkhaqlarında 20-50 faiz artımlar edilib.**

# Sosial islahatlar paketinin beynəlxalq əhəmiyyət aspektləri...

## Elçin Mirzəbəyli: "Dünyanın heç bir ölkəsində islahatlar aparılan zaman əhalinin sosial müdafiəsinə bu qədər böyük vəsait ayrılmır"



Bununla da Azərbaycanda minimum əməkhaqqı məbləğinin 92,3 faiz artırılmasına, eyni zamanda, bu məbləğin yaşayış minimumunu (180 manat) 40 faiz üstələməsinə nail olunub.

Minimum əməkhaqqının artımı ilk pilləsi minimum əməkhaqqı məbləği səviyyəsində olan vahid tarif cədvəlinin bütün pillələri üzrə edilən artımlar da nəzərə alınmaqla 950 min nəfərin (o cümlədən, dövlət sektoru üzrə 600 min, özəl sektor üzrə 350 min nəfərin) maaşının artmasına imkan verib. Azərbaycan minimum əməkhaqqının səviyyəsinə görə tək qonşu ölkələrlə deyil, MDB ölkələri ilə müqayisədə edildikdə alıcılıq qabiliyyəti indeksi üzrə artıq ikinci yerə yüksəlib. İkinci sosial paketin tərkib hissəsi kimi, minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumən 1 milyon 350 min insanın əməkhaqqı gəlirlərinin əhəmiyyətli şəkildə artması ilə nəticələnib.

Böyük sosial paket çərçivəsində imzalanan sənədlər, müxtəlif sahələr üzrə həyata keçirilən yeniliklər ölkə vətəndaşlarının həyat şəraitini yaxşılaşdırmaqla yanaşı, onları gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir. Bütün bunlar, əlbəttə ki, Prezident İlham Əliyevin iqtisadi islahatlarının təzahürüdür. Məhz bu islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım yaranıb. Bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Büdcəyə daxilolmaların həcmi yüksəlib. Bu da imkan verir ki, genişmiqyaslı sosialyönümlü tədbirlər görülsün. Bu tədbirlər çərçivəsində əməkhaqları, pensiyalar və müavinətlər artırılır. Bütün bunlarla yanaşı, 1 milyon 350 min insanın əməkhaqqı gəlirlərinin əhəmiyyətli şəkildə artması və ümumən sosial islahatlar paketinin hansı beynəlxalq əhəmiyyəti var?

*"Fikrimcə, bunun Azərbaycan üçün çox böyük beynəlxalq əhəmiyyəti var"*

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, bunun beynəlxalq əhəmiyyəti böyükdür: "Əvvəla sosial paketə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsi kimi yanaşıram. Dünyanın heç bir ölkəsində islahatlar aparılan zaman əhalinin sosial müdafiəsinə bu qədər böyük vəsait ayrılmır. Fikrimcə, bunun Azərbaycan üçün çox böyük beynəlxalq əhəmiyyəti var. Şərqi Avropada aparılan islahatları xatırlasaq görərik ki, orada fərqli mənzərə yaranıb. Həmin dövrlərdə aparılan islahatlar zamanı əhalinin gəlirləri qısa müddət ərzində kəskin şəkildə azaldı. Maliyyə resursları əsasən iqtisadi islahatların aparılmasına yönəldildi. Ancaq Şərqi Avropa ölkələrindən fərqli olaraq, Azərbaycanda bu yöndə aparılan islahatların paralel şəkildə həyata keçirildiyinin şahidi oluruq. Bir tərəfdən islahatlar aparılır, o biri tərəfdən isə əhalinn sosial müdafiəsi ilə bağlı tədbirlər görülür. Əməkhaqları və pensiyalar əhəmiyyətli şəkildə artırılır. Hesab edirəm ki, Azərbaycanın təqdim etdiyi bu model unikaldır.

**Bu ondan qaynaqlanır ki, Azərbaycanda yürüdülən siyasətin təməlində ölkə vətəndaşı dayanır. Yəni hədəf, bütün hallarda, Azərbaycan vətəndaşının rifah halını yüksəltməkdən ibarətdir. Düşünürəm ki, məhz bu faktor da ölkəmizə beynəlxalq miqyasda diqqətin artırılmasında mühüm rol oynayacaq. Azərbaycanda bu yöndə gedən proseslər uzun zaman beynəlxalq ekspertlərin, araşdırmaçıların diqqət mərkəzində olacaq".**

*Vidadi ORDAHALLI*

---

**Azərbaycan müxalifətinin radikal qanadı uğursuzluğunun bir səbəbini də öz həmfikirləri ilə bir araya gələ bilməməkdə görür. Ancaq bu heç də o anlama gəlmir ki, belə birliklərin yaradılması istiqamətində cəhdlər edilməyib. Hələ ötən əsrin 90-cı illərindən başlayaraq, adı tez bir zamanda tarixin arxivinə qovuşan müxalifət birlikləri yaradılıb. Onlar daxili intriqalar hesabına tez bir zamanda sıradan çıxıb.**

# Azərbaycanın siyasi sistemində uğursuz radikal bloklar və son həlqə kimi dağılan "AXH"...

## Əli Əliyev: "Biz başqa siyasi qüvvələrin məsuliyyətini bölüşmək istəmirik"




Həmin konsolidasiya modellərindəki fəaliyyəti araşdırdıqda məlum olur ki, ora toplaşanların başlıca vəzifəsi iqtidarla mübarizə aparmaqdan çox, öz aralarında qovğa etməkdən ibarət olub. Belə birliklər kimi "SİDSUH", "Demkonqres", "Müxalifətin Koordinasiya Mərkəzi", "Müxalifətin Antiböhran Koalisiyası", "İctimai Palata", "Milli Şura"nın adını qeyd edə bilərik. Yaxın zamanlarda isə radikal müxalifəti öz ətrafında birləşdirən "Azərbaycan Xalq Hərəkatı" adlı bir qurumun yaradıldığı bəyan olundu. Qısa müddətdə "AXH" iki yerə parçalandı. İkiyə parçalanmış qurumun daxilində isə hər gün dava-dalaş gedir. İndi də "AXH"lərdən birində təmsil olunan Vətəndaş və İnkişaf Partiyası da qurumdan çıxdığını bəyan edib.

VİP mətbuat xidmətindən verilən xəbərdə bildirilir ki, Siyasi Şurada partiyanın "Azərbaycan Xalq Hərəkatı"nda (AXH) iştirakına xitam verilməsi, partiyanın beynəlxalq əlaqələrinin gücləndirilməsi, təşkilati strukturların fəaliyyətinin yeni şəraitə uyğunlaşdırılması məsələləri müzakirə olunub.

VİP sədri Əli Əliyev bildirib ki, müəyyən amillər VİP-in hərəkatda iştirakına xitam vermək zərurətini yaradıb.

Müzakirələrdə iştirak edən Siyasi Şura üzvləri VİP sədrinin toxunduğu məsələlər ətrafında fikirlərini bildirərək, yeni situasiyada atılacaq addımları dəyərləndiriblər. Siyasi Şurada keçirilmiş səsvermədən sonra VİP-in "AXH"də iştirakına xitam verilməsi haqqında qərar qəbul olunub.

Müxalifətin radikal qanadının birlik modellərinin belə uğursuz alınmasının sirri nədədir?

"AXH"dən istefa verən partiyanın sədri Əli Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, birlik modellərinin tez dağılmasının səbəblərini yalnız müxalifətdə axtarmaq lazım deyil: "Burada ümumi bir problem var. Buna köklü və obyektiv yanaşmaq lazımdır. Əslində, ölkədə normal, mənti̇qi siyasət mühiti mövcud deyil. Biz hesab edirik ki, ölkədəki seçkilər ədalətli keçirilmədiyi üçün, müxalifət hakimiyyətin idarə olunmasında iştirak edə bilmir. Güclər qeyri-bərabər olduğu üçün, müxalifətin bəzi qurumları da birləşmək qərarına gəlir. Bu uzun müddətdə bəyəm iqtidar komandasında hər şey rəvan olub? Orda da istefalar, hakimiyyətin ən yuxarı postlarında təmsil olunan şəxslərin həbsi baş verib. Ən radikal YAP-çıların çönüb müxalifətçi olduğunu da görmüşük. Bu baxımdan da intriqa mekanının ünvanı kimi yalnız müxalifəti göstərmək lazım deyil. Uzun müddət siyasi perspektivinin qarşısı alınan qüvvələr nə etməlidir? Təbii ki, onlar həm də bir-birinə rəqibdirlər, aralarında narazılıqların olması da təbiidir. Müxalifət çox çətin şəraitdə mübarizə aparmaq istəyir. Mən bir daha vurğulayıram, belə bir böhran iqtidarın da içində var. Hakimiyyətin kursunu dəstəkləyən bir çox millət vəkili görürük ki, həlledici məqamda öz komandasını müdafiə etməkdən yayınır".

*"Bəzi məsələlərdə olan fikir ayrılığı bizim müəyyən siyasi hədəflərimizə çatmaq üçün problemlər yarada bilər"*

Partiya sədri müxalif qurumların daxilində müəyyən intriqaların olduğunu da istisna etmir: "Bilirsiniz, həmin birliklərdə təmsil olunan hər bir partiyanın öz ayrıca kursu olur. Bizim "AXH"dən çıxmaq və "Azerifreedom" kanalında bir daha çıxış etməməklə bağlı bəyanatımız oldu, orada bir intriqa hiss etdinizmi? Qərarımızı onunla əsaslandırmışıq ki, partiyanın işləri ilə "AXH"nin işlərini uzlaşdırmaq bir qədər çətinlik yaradır.

İkincisi, biz başqa siyasi qüvvələrin məsuliyyətini bölüşmək istəmirik. Hesab edirik ki, müəyyən məsələlərdə olan fikir ayrılığı bizim müəyyən siyasi hədəflərimizə çatmaq üçün problemlər yarada bilər. Ona görə də çalışırıq ki, bir qədər məsafəli davranaq. Bunu da normal qəbul edirik. Çünki müstəqil siyasi qurumuq, belə qərarları vermək səlahiyyətinə sahibik. "Azerifreedom"la əlaqəmizi kəsməyimiz isə oranın yürütdüyü informasiya siyasəti ilə bağlıdır. Oranın apardığı təbliğat bizim siyasi hədəflərimizdən və mübarizə vasitələrimizdən fərqlidir".

*Məhəmmədəli QƏRİBLİ*

**Ermənistan-Amerika Ticarət Palatası Paşinyanın Amulsarla bağlı oyun oynadığı qənaətinə gəlib və Baş nazirə bəzi incə detalları xatırlatmağa məcbur olub. Erməni KİV-i yazır ki, Ermənistandakı Amerika Ticarət Palatası Amulsar yatağını inkişaf etdirən və Palatanın üzvü olan "Lidian Armenia" şirkəti ətrafında baş verən hadisələrlə əlaqədar bir bəyanat yayıb.**



# Paşinyanın "Amulsar kartı" ilə ABŞ-ı sıxmaq cəhdi əks-effekt verir - ikinci bəyanat...

Bəyanatda qeyd olunur ki, Palata 2000-ci ildə qurulmuş və hazırda Ermənistan iqtisadiyyatının demək olar ki, bütün sektorlarında iştirak edən, 140 yerli və ya xarici şirkət tərəfindən təmsil olunan inkişaf etmiş bir işbirliyidir. Həmçinin, bəyanatda o da deyilir ki, Ermənistanda daxili və xarici sərmayələri təşviq etmək və əlverişli biznes mühitinin formalaşdırılması Palatanın missiyasıdır. Sərmayələrə ədalətli və qanuni münasibət yalnız investisiya şirkətləri üçün deyil, həm də Ermənistan iqtisadiyyatının inkişafı və xalqın rifahı üçün son dərəcə vacibdir. Məhz bu əsasda Palata 13 ay ərzində Amulsarla bağlı ikinci bir açıqlama verməyə məcbur olub.

Bəyanat müəllifləri "Lidian"a qarşı kampaniyanın biznes maraqlarını həyata keçirən xüsusi tərəflər tərəfindən maliyyələşdirildiyini söyləyən Paşinyanın özünün dediklərini də xatırladırlar və qeyd olunur ki, bu cür iddiaların araşdırılacağına ümid edirlər.

Bəyanatda o da vurğulanır ki, Palata Amulsar ətrafındakı sağlam olmayan vəziyyətin mənfi təsirindən də narahatdır. Bunlar Ermənistanın investisiya cəlbediciliyini azaldacaq potensial investorlara şübhəsiz mənfi mesajlardır.

Palata xəbərdarlıq edir ki, Amulsar layihəsinin daha da gecikməsi prosesi daha da ağırlaşdıracaq və işgüzar mühitə təsir göstərərək son nəticədə Ermənistanın investisiya cəlbediciliyini ləğv edəcək uzunmüddətli bir xarakter əldə edə bilər. Məhz buna görə də Baş naziri problemi ən qısa müddətdə və ədalətli şəkildə həll etməyə çağırırlar.

ABŞ şirkəti, faktiki olaraq, diplomatik dillə Paşinyana izah etməyə çalışır ki, onun "Amulsar oyunu"nun kartları onlar üçün açıqdır. Baş nazirə izah edilir ki, o, bu məsələdə ABŞ-ı sıxışdırmaqla Rusiyaya sədaqət jesti nümayiş etdirir. Yaranmış vəziyyət Paşinyan üçün nə vəd edir?

Politoloq Elşən Mustafayevin sözlərinə görə, Ermənistanda baş verən inqilabdan sonra Paşinyan çıxılmaz vəziyyətdə qalıb: "O, daxili problemlərin həlli ilə bağlı verilən vədlərlə yanaşı, beynəlxalq dairələrə verdiyi sözün də üstündə dura bilmir. Bu da ölkədəki gərgin olan vəziyyəti bir qədər də qəlizləşdirir. Artıq aydın şəkildə müşahidə edilir ki, Paşinyan balansa nəzarət edə bilmir. Bəllidir ki, Paşinyanın hakimiyyətə gəlməsində ABŞ və Qərbin böyük rolu olub. Adətən elə ölkələr bu işləri özlərinə məxsus olan transmilli korporasiyaları vasitəsilə edirlər.

Paşinyanın seçki kampaniyası ərəfəsi komandasının sıx kontaktda olduğu biznes dairələr və onlarla razılaşmalar mövcuddur. Bunlardan da biri "Lidian Armenia" şirkətidir və bu şirkət Amulsar qızıl yataqlarına 2016-cı və 2019-cu illərdə 400 milyona yaxın maliyyə yatırıb.

Bu şirkətlə yeni hökumət Amulsar dağındakı qızıl yatağının işlənməsi ilə bağlı çərçivə razılaşma sənədi imzalayıb. Müqavilənin şərtlərinə görə, Ermənistan hökuməti şirkətlə danışıqları ləğv edəcəyi halda, şirkətin investisiya formasında yatırdığı 400 milyon dollarlıq maliyyədən kənarda həm də 700 milyon dollar cərimə ödəməlidir. Beynəlxalq Arbitraj Məhkəməsinə müraciət olunacağı halda bu məbləğ daha çox olacaq. Artıq ABŞ görür ki, Paşinyan Rusiyadan çəkindiyi üçün həmin yağlı tikəni ABŞ-la bölüşmək istəmir. Ancaq bu halın özü də Paşinyan üçün yaxşı nəsə vəd etmir. Şirkət bununla bağlı beynəlxalq hüquq müstəvisinə müraciət etsə, İrəvan pis vəziyyətə düşmüş olacaq. Cərimənin tətbiqi kiçik büdcəli Ermənistan üçün ciddi iqtisadi kataklizm vəd edə bilər".

Politoloqun sözlərinə görə, ölkədə dəyərli metal sənayesi də daxil sənaye və enerji şirkətlərinin 70 %-nin səhmi Rusiyaya məxsusdur: "Rusiyada Amulsar qızıl mədəni ilə bağlı baş verənlər diqqətlə izlənir. Artıq vəziyyət Ermənistandakı hakim partiyanın daxilində də fikir ayrılığına səbəb olub. Hətta parlament böhranı yarada biləcəyini də bildirirlər. Həm Rusiya, həm də ABŞ bu vəziyyətdən öz marağı üçün istifadə edə bilər. Artıq erməni mətbuatında növbədənkənar seçkilər haqqında dərc edilən məlumatlara rast gəlirik. Ermənistan parlament respublikasıdır. Buna görə də hakimiyyət dəyişikliyinin başvermə ehtimalı və Paşinyanın Baş nazir kürsüsünü itirməsi mümkündür. Yeni Amulsar-la bağlı Paşinyanın düşdüyü vəziyyət ona yaxşı nəsə vəd etmir".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Almaniyanın Brandenburq federal torpağında keçirilən seçkilərə Qarabağ separatçıları da müşahidəçi qismində qatılıblar. Ermənistan KİV-inin verdiyi məlumata görə, millətçi "Almaniya üçün alternativ" partiyasının dəvətilə seçkiləri müşahidə edənlər arasında qondarma "Azad Vətən Partiyası"nın üzvləri Qaqik Petrosyan və Vaqram Poqosyan da olub.**



# Qondarma "DQR"in xaricdə pul tələsinə saldığı dairələr Almaniyada da var imiş...

***Məhərrəm Zülfüqarlı:*** *"Azərbaycan Xarici İşlər Nazirliyi mütləq bu məsələyə rəsmi etiraz etməli və Almaniyadan izahat istəməlidir"*

Qeyd edək ki, separatçı qurum bütün istiqamətlər üzrə özünü təbliğ etməyə çalışır. Xüsusilə də bəzi Avropa ölkələrindəki yerli subyektlərlə əlaqələrin qurulmasına üstünlük verir. Həmin ölkələr də reaksiyalarında bildirirlər ki, bu, dövlətin mövqeyini əks etdirmir, yerli qurumların müstəqil qəbul etdiyi qərarlardır. Ancaq Azərbaycan diplomatiyasının apardığı uzun təbliğatdan sonra isə bu istiqamətdə kardinal dəyişiklik oldu. Məsələn, Fransanın bir neçə məhkəməsi həmin ölkənin yerli subyektlərinin qondarma "DQR"in bəzi şəhərləri ilə bağladıqları "müqavilələri" ləğv etdi. Məhz belə bir məqamda Almaniyanın atdığı bu addımı necə dəyərləndirmək olar?

Azərbaycanda dərin seçki təcrübəsinə malik olan AVCİA-nın rəhbərliyində təmsil olunan professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, Almaniyanın atdığı bu addım tamamilə qanunsuzdur: "Bir çox hallarda həmin nümayəndələr ora Ermənistan pasportları ilə gedib özlərini "DQR" nümayəndəsi kimi qələmə verirlər. Təəssüflər olsun ki, biz ilk dəfə deyil belə halla rastlaşırıq. Bütün məsələlərə ayrılıqda, fərdi yanaşma ortaya qoyduqdan sonra bəzi irəliləyişlər əldə edirik. Qərbin bəzi ölkələri demokratiya adı ilə belə qanunsuzluqlara yol verirlər. Biz bunu Fransa ilə də bağlı müşahidə edirdik. Artıq orada "DQR"in "kitabını" məhkəmələr vasitəsilə bağladılar. Ruhdan düşməmək lazımdır, hər bir belə qanunsuz halı ictimailəşdirib, arxasınca getməliyik. Belə demokratiya oyunları hər zaman onların öz başında çatlayır. Artıq separatizm Avropanı bürüyür. İspaniyada Kataloniya məsələsi ortaya çıxıb. Bir azdan almanların özü də belə problemdən əziyyət çəkməyə başlayacaq. Çox təəssüflə qeyd etməliyik ki, demokratiyadan danışan bir ölkədə keçirilən seçkilərə bu cür qondarma qurumun nümayəndələri dəvət alıb. Hesab edirəm ki, Azərbaycan Xarici İşlər Nazirliyi mütləq bu məsələyə rəsmi etiraz etməli və Almaniyadan izahat istəməlidir. Onların təqribən nə cavab verəcəyi də məlumdur. Deyəcəklər ki, onları hansısa partiya dəvət edib, dövlətin siyasətinə heç bir aidiyyəti yoxdur. Qoy nə deyirlər desinlər. Biz müraciətimizi mütləq etməliyik. Bilsinlər ki, belə məsələlərə ciddi nəzarət edilir. Sabah Azərbaycanın da onlara deməyə sözü olsun. Bizdə də seçkilər keçiriləndə onların nümayəndələri gəlib burada yüksək dəyərlərdən danışırlar. Bu il bələdiyyə, gələn il parlament seçkilərinə hazırlaşırıq.

*"Onda biz almanların nümayəndələrinin diqqətinə bu cür beynəlxalq hüquqa zidd olan hərəkətlərini çatdırarıq"*

Onda biz almanların nümayəndələrinin diqqətinə bu cür beynəlxalq hüquqa zidd olan hərəkətlərini çatdırarıq. Bilirsiniz, "DQR" üçün nəyin qanuni, nəyin qanuni olmadığı maraqlı deyil. Onların əsas məqsədi adlarının hallanmasıdır. Mənfi və ya müsbət mənada onlara fərq etmir. Bu üsullarla separatizmi təbliğ edirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Keçmiş qayınanası: "Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə!"

**"Milli Şura" adlandırılan dərnəyin üzvü Gültəkin Hacıbəyli ilə keçmiş həyat yoldaşının ailə üzvlərinin gərgin münasibəti bir müddətdir ictimai diqqət mərkəzindədir. Xüsusilə də keçmiş qayınanası onu məhkəməyə verəndən sonra məsələyə maraq daha da artıb. Biz şəxsi həyatın ictimailəşdirilməsinə qarşıyıq, amma siyasi fiqurların şəxsi həyatı olmur; onların şəxsi yaşamları əsl simalarının daha yaxşı görünməsinə, cəmiyyətin onları daha yaxşı tanımasına səbəb ola bilir.**






10 MİLLİ YOL

GORANBOY RAYONUNDA ÖZBAŞINALIQLAR SON HƏDDƏ ÇATIB

İcra başçısı hamını Gültəkin Hacıyevaya səs verməyə çağırıb

Bu isə vacibdir. Elə vacib olduğuna görə də Gültəkin Hacıbəylinin keçmiş qayınanası Nəhayət Məmmədova ilə söhbətləşdik.

**- Gültəkin Hacıbəyli və ətrafındakılar tez-tez deyirlər ki, qayınanasının onu məhkəməyə verməsi mentalitetimizə ziddir...**

- Onların mentalitetdən danışmağa heç bir haqları yoxdur. Mən bircə dəfə də olsun onun özündən mentalitetimizə uyğun hansısa davranış görməmişəm. Nə oğlumla bir yerdə yaşayanda, nə də ayrılandan sonra. Bəs 2005-ci ildə Gültəkinin heç bir hüquqi əsası olmadan qayınanasını və ərini məhkəmələrə verib, üç il müxtəlif instansiyalarda süründürüb, əmlakına həbs qoyduraraq, satdırıb, pulunu əllərindən alması mentalitetimizə uyğun idi ki!?

**"Əvvəldən oğlumun onunla ailə qurmasına qarşı idim"**

**- Mentalitetdən söhbət düşmüşkən, Azərbaycan mentallığında bir gəlin obrazı var. Gültəkin Hacıbəyli sizin ailənin üzvü olanda həmin obraza nə dərəcədə uyğun idi?**

- Mənim ona hətta keçmiş zamanda belə, "gəlin" deməyə dilim gəlmir. Çünki o, heç vaxt gəlin, ana, həyat yoldaşı olmayıb, hər zaman elə indiki kimi hikkəli bir qadın olub. Əslində, lap əvvəldən oğlumun onunla ailə qurmasına qarşı idim. Son dövrlərdə gedib ölkəsini satanlara qoşulandan, xalqına və millətinə xəyanət edəndən sonra əsl üzünü hamı gördü. Amma bu sifət onda elə hər zaman olub.

O, bizim ailəmizə çox ağrılar yaşadıb. "Gəlinim" olduğu 14 ay müddətində də bizə qarşı böyük haqsızlıqlar edib, indi də həmin yoldadır. Mən, oğlum, digər qohumlarımız da ona görə çox əsəb, narahatlıq, gərginlik keçirmişik.

**- Bəs öz həyat yoldaşına qarşı necə idi? Biz azərbaycanlılar adətən gəlini qayğıkeş, həyalı, ədəb-ərkanlı təsəvvür edirik... Ümumiyyətlə, onlar necə dolanırdılar və ailə münaqişələri nədən başladı?**

- Xahiş edirəm, dərdimi təzələməyin. Onun mənim oğlumla bir yerdə yaşadığı vaxtlarda etdiyi hərəkətlər çox ürəkbulandırıcı və ağlasığımaz idi. Biz bu haqda heç vaxt heç bir yerdə danışmamışıq. Elə indi də danışmaq istəmirəm... Mənim və oğlumun müxtəlif instansiyalara müraciətlərimiz və şikayətlərimiz ancaq onlar boşandıqdan sonra Gültəkinin etdiyi qanunsuz əməllər barədə olub. Ailə sirlərinə isə toxunmayaq.

**- İndi siyasətçi Gültəkin Hacıbəyli çox aqressivdir. O vaxtlar da elə idimi?**

- İnanın, o vaxtlar əlində imkan var idi deyə, özünü indikindən qat-qat sərt aparırdı. Aqressiyası, hikkəsi, hədə-qorxu gəlməsi indikindən qat-qat artıq idi.

***

...23 may 2003-cü il tarixdə Ümummilli lider Heydər Əliyevin göstərişinə əsasən, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Gültəkin Hacıyevaya Nəsimi rayonu, S.Vurğun küçəsi, 92 a ünvanında 12 saylı üçotaqlı mənzil verilir. Bundan yarım ay sonra, 2003-cü il iyunun 7-də Gültəkin Hacıyeva Mahmud Mehdiyevlə rəsmi nikaha daxil olurlar. Onların təzə mənzili təmir etməyə maddi imkanları yox idi. Gültəkin mənzili təmir etdirmək üçün qayınanasından pul istəyir. Oğlu Mahmudun da təkidlərindən sonra Nəhayət xanım 50 min ABŞ dolları xərc çəkərək həmin mənzili təmir etdirir.

**"Gültəkin doğma əmisinə "torba tikdi"**

**- Siz özünüz 50 min dolları haradan almışdınız?**

- Müxtəlif yerlərdən toplamışdım. Bəzi əşyalarımı satmışdım, qohumlara ağız açmışdım... Mənim hələ SSRİ vaxtından Moskvada yaxın qohumlarım yaşayırlar və ailəmizin indi də orada ortaq biznesi var, əlimizdə həmişə pul olub. Axı söhbət mənim oğlumun ailəsindən gedirdi. Gültəkin söz vermişdi ki, təmir olunduqdan sonra həmin mənzili yüksək qiymətə kirayəyə verəcək, üstəlik, Goranboy rayonunda qurduğu biznesdən də əldə etdiyi gəlirin hesabına borcu qaytaracaq.

**- Söhbət hansı biznesdən gedir?**

- Onun əmisi İdris Hacıyevin adına "Emil" MMC açdıraraq, rayonda 20 hektar ərazidə gips karxanasına yiyələnmişdi. Sonra qazancı bölüşdürə bilmədiklərindən, Gültəkinin təzyiqi ilə Goranboy Rayon İcra Hakimiyyətinin məhkəmədə qaldırdığı iddia əsasında İdris Hacıyev "cəzalandırıldı", karxana əlindən alındı.

**- Nəyə əsasən?**

- İddia bununla əsaslandırılmışdı ki, guya karxananın yerləşdiyi ərazidə yaşayış evləri olduğundan, orada mədən işləri aparmaq olmaz, təhlükəlidir. Lakin bundan sonra həmin ərazi Gültəkin Hacıyevanın atası Yunis Hacıyevin adına açılmış "Gülüstan" MMC-nin icarəsinə verildi.

**- Yəni öz əmisinə "torba tikdi"?**

- Əməlin adını artıq siz özünüz qoyun! Amma fikir verin, doğma əmisinə qarşı belə çirkin addım atan birisindən nə gözləmək olar? Cavabını da özüm deyim - hər cür xəyanət. Doğmasına qarşı nankorluq, xəyanət edən Gültəkin xalqına da, Vətəninə də bu cür addımlar atar, necə ki, indi bu çirkin yoldadır. Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə, nə doğmaları. Onun məramı-məqsədi şəxsi mənafeləri üçün insanları şərləmək, kələk gəlmək və sairdir. O, mənəvi dəyərlərini itirmiş biridir.

***

..."Milli yol" qəzetinin (o vaxt bu müxalifət qəzetinə Elnur Astanbəyli rəhbərlik edirdi) 6 oktyabr, 2005-ci il tarixli buraxılışında oxuyuruq: "...Bu gün yenidən Goranboydan deputatlığa namizəd olan Gültəkin Hacıyeva nə üzlə buraya təşrif buyurub və danışmağa dili varmı? Maşınlarda gəzən bu xanım nəinki bu rayonda sevilmir, hətta onun əleyhinə imzatoplama kampaniyası başlanıb... Goranboy rayonunda Gültəkin Hacıyevaya qiymət vermək üçün onun əmisilə söhbətləşməyi məqsədəuyğun saydılar. Bildirdilər ki, vaxtilə Gültəkinin nənəsi dünyadan köçəndə onu əmisi yas yerinə buraxmayıb. Bundan sonra xanım deputat ayrı çadır qurub və yas verdirib...

...Sən demə, yaraşıqlı görünən bu xanımı öz rayonunda o qədər də sevmirlərmiş. Səbəbini yəqin ki, onlar özləri daha yaxşı bilirlər. Sən demə, rayonun ən iri şirkətləri icra başçısına haqq vermirlər. Onlar bildirirlər ki, bizim "patron"umuz Gültəkin xanımdır və bizə də belə tapşırıb".

***

**- Qayıdaq borc məsələsinə. Onun axırı necə oldu?**

- Gültəkin həmin pulu qaytarmadı. Mənim isə aldığım borclar yığılıb, üstümdə qalmışdı. Məcbur oldum ki, ikiotaqlı mənzili satıb, həmin borcları ödəyim. Amma mənzili satandan sonra Gültəkin məni, - hələ boşanmadığı ərinin anasını, yəni öz rəsmi qayınanasını məhkəməyə verdi.

**- ???**

- Təsəvvür edirsiniz? Dedi ki, həmin mənzildə yaşayıb və ona da pay düşməlidir. Məhkəmə onun xeyrinə qərar çıxardı, mənzilimin alqı-satqı müqaviləsi ləğv edildi, şəxsi mülkiyyətimdə olan digər əmlaklar hərraca çıxarıldı və biz məcbur olduq, daha doğrusu, məcbur edildik ki, ona 22 min manat ödəyək.

**- Bu, nə dərəcədə qanuni idi?**

- Ancaq onu deyə bilərəm ki, o vaxt Gültəkin özünün statusundan suiistifadə etdi. Həm də çox vicdansız formada. Bu gün haqq-ədalətdən, düzgünlükdən danışan adam əlində imkan olanda hər addımda qanunları öz xeyrinə pozurdu.

**- O, sizin nəvənizin anasıdır. Necə bir anadır, sizcə?**

- "Ana" müqəddəsdir, böyük sözdür, gəlin onu ucuzlaşdırmayaq. Övladını öz kininə, hikkəsinə qurban verərək, atasız böyüməyə məhkum edən qadına ana demək olmaz. Əsl analara haqsızlıq edərik. O, vaxtilə hər yola əl atdı ki, uşaq nə atası ilə görüşə bilsin, nə də biz tərəfdən olan digər qohumlarıyla. Bununla, əslində, uşağın da hüquqlarını pozurdu, atanın da, başqa qohumların da. O, hələ rəsmən boşanmamışdan əvvəl belə edirdi.

**- İkinci dəfədir bilmirəm ki, çaşqınlığımı hansı sualla ifadə edim...**

*(Ardı 7-ci səh.)*

**Ermənistan Baş naziri Nikol Paşinyanın ABŞ-la bağlı gözləntiləri fiaskoya uğradıqca, ziddiyyətli açıqlamalar verməkdədir. Bir sıra hallarda onun verdiyi açıqlamalar, yürütdüyü siyasət birbaşa ABŞ-ın mənafeyinə qarşı yönəlir. Heç şübhəsiz ki, bütün bunlar da Birləşmiş Ştatların diqqətindən yayınmır.**

# "Biz heç vaxt İrana qarşı getməyəcəyik" - Paşinyanın son bəyanatı "ABŞ-dan əlini üzməyi" kimi xarakterizə olunur...



## *Məhəmməd Əsədullazadə: "Belə görünür ki, Paşinyanın ABŞ-dan gözləntiləri sona yaxınlaşır"*

İranın "Donya-ye eqtesad" qəzetinə verdiyi müsahibəsində Nikol Paşinyan ABŞ-ın Tehran siyasətinə qarşı çıxdığını bəyan edib. O, müsahibəsində bildirib ki, Ermənistan heç vaxt anti-İran addımı atmayacaq. "Donya-ye eqtesad" qəzetinin "İrəvan ABŞ-ın təzyiqi fonunda İranla dostluq naminə nə qədər itkiyə hazırdır" sualına cavabında Nikol Paşinyan deyib ki, İran və Ermənistan qarşılıqlı iqtisadi öhdəliklər götürüb: "Bu illər ərzində İran və Ermənistan arasında bir neçə ortaq layihə icra olunub. Tehran və İrəvan arasında sanksiyalardan təsirlənməyən müştərək layihələrin icrası hazırda davam edir".

Ermənistan Baş naziri daha sonra bildirib ki, İran və ABŞ-la münasibətlər Ermənistan üçün vacibdir: "Biz bölgənin həssas mühitində bütün regional və beynəlxalq dostlarımız və tərəfdaşlarımızla işləməyə çalışırıq. İrəvan fərqli ölkələrlə bütün ticarət öhdəliklərinə əməl edir. Bu gün bölgə üçün çətin olan Ermənistanın siyasəti deyil, amma bu gün və sabah fərqli ölkələr qarşısında götürdüyümüz öhdəlikləri yerinə yetirmək siyasətimiz çoxdan mövcuddur. Qeyd etməliyəm ki, Ermənistan heç vaxt anti-İran addımı atmayacaq. Ermənistan regional və ya transregional fərqlər barədə bütün ölkələr, o cümlədən, İranla açıq şəkildə danışır. Ermənistan heç vaxt özünün anti-İran kursuna girməsinə imkan verməz. İranla planlarımız çoxdur".

Bütün bu deyilənlərin fonunda, Paşinyanın İranla bağlı məlum açıqlaması nə deməkdir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Paşinyan

## *"Bu həm də Vaşinqtonu sabotaj etmək deməkdir"*

bununla ABŞ-ı şantaj etmək istəyir: "Ermənistan Baş naziri Nikol Paşinyanın ABŞ-ın siyasətinə qarşı olaraq İranla iqtisadi əməkdaşlığı inkişaf etdirməsi barədə çıxışları birbaşa Vaşinqtonu sabotaj etməkdir. Hesab edirəm ki, Paşinyan bu müsahibə ilə çalışır İranla əməkdaşlıqda yeni səhifə açsın. Ancaq Vaşinqtonun sərt siyasi və iqtisadi təzyiqləri özünü büruzə verməkdədir. Məhz İranla bağlı siyasətində okeanın o tayından təzyiqlər özünü göstərir. Bu gün İran-Ermənistan əməkdaşlığının heç bir perspektivi yoxdur. Çünki iki tərəfin iqtisadi potensialı buna imkan vermir. Sadəcə, Paşinyan bununla özünü regionda İranın əsas tərəfdaşı kimi göstərməyə çalışır. Eyni zamanda, istəyir ki, bunun müqabilində Birləşmiş Ştatlardan nəsə qoparsın. Bir növ, Vaşinqtona eyham vurur ki, Ermənistana diqqət artmazsa, o zaman İranla əlaqələr daha da dərinləşdiriləcək. Ancaq bunun əksinə olaraq, ABŞ-ın reaksiyası daha sərt məcraya yönəlməkdədir. Vaşinqton bununla Paşinyan hakimiyyətinə göstərmək istəyir ki, İrəvan bu ölkə ilə şantaj ritorikası ilə danışa bilməz. Nəticə də ortadadır. Bir ildən çoxdur Paşinyan Ermənistanda hakimiyyətdədir, amma hələ də ABŞ-a rəsmi səfərə dəvət olunmayıb, Tramp-Paşinyan ikitərəfli görüşü baş tutmur və s. Belə görünür ki, Paşinyanın ABŞ-dan gözləntiləri sona yaxınlaşır. Hesab edirəm ki, İrəvan artıq xarici siyasətdə fiaskoya uğrayır".

***Vidadi ORDAHALLI***

---

*(Əvvəli 6-cı səh.)*

- Çünki onun hərəkətləri doğrudan da, bəzən normal məntiqə sığmır. Gültəkin ərindən rəsmən boşanmamışdı, yəni hələ məhkəmənin qərarı yox idi, amma nə oğlumu, nə də məni uşağı görməyə qoymurdu.

**- Onda uşağın neçə yaşı var idi?**

- Körpə idi, təzə doğulmuşdu. Amma Gültəkin onu bizdən uzaqlaşdırmaqla uşağın da, atanın da, mənim də, digər qohumların da hüquqlarını pozmuşdu.

**- Bəs niyə işi hüququ yolla həll etmədiniz?**

- Eləməyə çalışdıq. Hətta həmin vaxt - 2005-ci ildə işə baxan Səbail Rayon İcra Hakimiyyətinin Qəyyumluq və Himayəçilik Komissiyası rəsmən bildirmişdi ki, azyaşlı Mehdiyev Toğrul Mahmud oğlunun - yəni nəvəmin, - hansı valideynin himayəsinə verilməsinin məhkəmə tərəfindən həll edilmədən, valideynlərdən biri tərəfindən özbaşına şəkildə öz himayəsinə götürülməsi, bu zaman atasına görüş verməməsi qanunsuzdur.

Amma biz işi hüquqi yolla həll etməyə çalışarkən G.Hacıbəyli bizə təzyiq göstərməkdən ötrü hər yola əl atırdı. Əvvəlcə o, Milli Məclisin rəsmi blankından istifadə etməklə görüşə razılıq verən Səbail Rayon İcra Hakimiyyətinə etiraz göndərmişdi. Sonra Daxili İşlər Nazirliyinə müraciət etdi, oğlumun haqqında yalan, böhtan dolu, təhqiramiz bir ərizə yazdı ki, guya oğlum Gültəkinə zəng edərək onu və azyaşlı uşağı öldürməklə hədələyib! Özü də yenə Milli Məclisin blankında! Təsəvvür edirsinizmi?! Mən başa düşə bilmirəm, ailə münasibətlərinin Milli Məclisə nə dəxli vardı ki, Gültəkin dövlət qurumlarına həmin orqanın blankı ilə müraciət edirdi? Təbii ki, bu da bir təzyiq vasitəsi və sui-istifadə idi.

**- Onda artıq boşanmışdılar?**

- Yox! Rəsmi evli idilər. Və Gültəkin Hacıbəyli öz çirkin niyyətinə çatmaqdan ötrü öz uşağının atasını, rəsmi nikahda olduğu şəxsi bu cür ləkələmişdi. Onun böhtanından sonra DİN-in Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsində oğlumun barəsində araşdırma aparıldı. Təsəvvür edirsinizmi, bu, oğlum üçün, mənim üçün, ailəmizin digər üzvləri üçün nə demək idi?! Hamımız mənəvi sarsıntı keçirmişdik, əsəblərimiz pozulmuşdu.

Yeri gəlmişkən, sonradan maraqlandıqda məlum olmuşdu ki, G.Hacıbəyliyə, ümumiyyətlə, hec kim zəng edərək hədələməyib. Yəni deputat öz hikkəsinə görə, sırf pislik etmək məqsədilə hüquq-mühafizə orqanına bilə-bilə yalan məlumat verib.

**- İndi, heç olmasa, hansısa yolla nəvənizdən xəbər tuta bilirsinizmi?**

- Biz hələ qohum olmazdan əvvəl 20 il ailəvi dostluq münasibətlərimiz olub. Ona görə də ümumi tanışlarımız çoxdur. Anasının təsiri altında olan və həqiqəti hələ ki, dərk edə bilməyən uşaqla ünsiyyət qurmadan, ümumi tanışlarımızın vasitəsilə maraqlanıram.



### "Gültəkin hər zaman saxta, ikiüzlü və riyakar olub"

...Gültəkin Hacıbəylinin 09.10.2010-cu ildə "Qafqazinfo" və Milli.az saytlarında dərc olunan müsahibəsində (https://news.milli.az/politics/23112.html) belə bir yer var. O, deputat olmaq istəməməsinin səbəblərini izah edərkən deyir:

- Düşünürəm ki, müəyyən fasiləyə ehtiyac var. Başqa planlarım var. İlk öncə, ciddi şəkildə doktorluq dissertasiyamla məşğul olacağam. Elmi yaradıcılığımdakı boşluğu doldurmalıyam.

**- Hər zaman dəstəklədiyiniz komanda ilə münasibətlərinizi bundan sonra necə qurmağı düşünürsünüz?**

- Buna qədər olduğu kimi. Ən yüksək səviyyədə. Bu komandada təmsil olunanların əksəriyyəti Azərbaycanın ən ləyaqətli övladlarıdır. Bir də, axı nə dəyişib ki? 27 yaşımdan mən bu komandanın fəal üzvlərindən biri olmuşam. Ulu Öndərin atalıq qayğısını hər zaman hiss etmişəm. Əziz Prezidentimizin rəhbərliyi altında Azərbaycanın AŞPA-dakı ilk nümayəndə heyətində təmsil olunmaq şərəfinə nail olmuşam. Mənim üçün bu gün də heç nə dəyişməyib və dəyişməyəcək də. Mən əqidə və prinsip adamıyam.

***

**- Onu yaxından tanıyan şəxs kimi necə düşünürsünüz: Bu sözləri deyən adam nə zaman, hansı hadisədən sonra dəyişdi?**

- Heç vaxt dəyişməyib, o, elə hər zaman saxta, ikiüzlü və riyakar idi. Mənim Gültəkin Hacıbəyliyə bir sualım var: deputat seçilməyəndən sonra o, bircə dəfə də olsun atalıq qayğısını gördüyü Ulu Öndərin məzarını ziyarət edibmi? Və ya 2011-ci ilə qədər o, indi "öndər" dediyi Rəsulzadənin doğum günü, yaxud, vəfatı ilə bağlı hər hansı bir tədbir keciribmi, belə bir tədbirdə iştirak edibmi? Hər zaman yalnız öz mənfəətini düşünüb, ancaq özünə sərf edən addımları atıb.

**- İqtidar komandasında olduğu vaxtlarda onda müxalifətə hansısa meyl, rəğbət hiss etmisinizmi?**

- Heç vaxt. Hətta deyərdim ki, müxalifətə nifrəti vardı. Yadınıza salın: Gültəkin Hacıbəyli 2000-2005-ci illərdə Milli Məclisdə Əli Kərimli ilə eyni vaxtda fəaliyyət göstərib. O vaxt bəzən çox sərt şəkildə müxalifləri tənqid edirdi. Əhəd Abıyev Əli Kərimlini təhqir edəndə onun müdafiəsi üçün bircə kəlmə söz demişdimi? Yox. İndi o, Kərimlinin üzünə necə baxır? Bunu bacarmaq lazımdır.

**- Bəs sizcə o, indiki siyasi mövqeyinə, düşərgəyə nə qədər sadiqdir?**

- Sədaqət kimi gözəl sözü o qadına aid etmək böyük günahdır. Özünüz də görəcəksiniz ki, o, vaxtı gələndə indi yanında olduğu adamların da, ona inanan hər kəsin də başına hansı oyunları açacaq. Onun hansı sifətlərinin olduğunu bilən şəxs kimi bunu əminliklə deyirəm.

**- Hazırda Gültəkin Hacıbəyli özünü müxalifətin liderlərindən biri kimi aparır. Onda lider keyfiyyətləri varmı?**

- Lider insanlardan öz marağı üçün istifadə etməyi düşünmür. Lider hikkəli, kinli olmur, əksinə, fədakar olur. Lider ikiüzlü, sürüşkən, xain olmur. O, heç öz anasına normal övlad, öz övladına normal ana olmağı bacarmayıb. Bircə dəfə onun anasını, digər ailə üzvlərini yanında görmüsünüzmü?! Nə lider?! Söz tapdınız da, deməyə...

**- Son olaraq, siz sosial şəbəkədə ona inanan, fikirlərini bəyənən insanlara nə demək istərdiniz?**

- Mən onu bəyənənləri ona "inanan" deyil, ona "aldanan" insanlar adlandırardım. Və məsləhət görərdim ki, aldanmayın!

***Tariyel Həsənov***
***Xüsusi olaraq***
***Femida.az üçün.***

# Əli Həsənov Əli Kərimliyə - "...məsuliyyətinizi, dövlət tərbiyəsini dərk etmədən atıb qaçdığınız Azərbaycanın..."

**Əli Kərimli son vaxtlar yenidən yaxın tariximizi təhrif edərək ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın 7 rayonunun işğal olunduğunu iddia etməyə başlayıb.**

Hələ o illərin canlı şahidləri Azərbaycan əhalisinin demoqrafik balansında xüsusi çəkiyə malikdir və yaxşı xatırlayırlar ki, Dağlıq Qarabağ və ətraf yeddi rayon Heydər Əliyev Azərbaycanın rəsmən prezidenti seçilməsindən əvvəl işğal edilib. Azərbaycanın işğal edilmiş sonuncu rayonu Zəngilan Ermənistan hərbi birləşmələri tərəfindən 1993-cü ilin oktyabrında zəbt olunmuşdu. Həmin vaxta qədər Azərbaycanın legitim prezidenti Əbülfəz Elçibəy idi.

"Trend"in məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov özünün "Facebook" səhifəsində yazıb.

Ə.Həsənov qeyd edib ki, Heydər Əliyev 1993-cü ilin 15 iyununda xalqın dəvətilə Azərbaycanı düşdüyü çıxılmaz vəziyyətdən xilas etmək üçün Bakıya gəlmiş və Ali Sovetin sədri seçilmişdi. Lakin ölkədə bütün güc strukturları parlamentin sədrinə yox, formal olaraq, legitim prezidentə, faktiki olaraq, baş nazirə tabe idi. Parlamentin sədri kimi Heydər Əliyevə tabe olan nə ordu, nə də heç bir güc strukturu yox idi. Paytaxtı tərk etmiş legitim prezidentin tərəfdarı olan deputatlar və ona sadiq məmur korpusu tərəfindən Heydər Əliyevin hətta parlamentin sədri kimi səlahiyyətlərinin icrasına da hüquqi və qeyri-hüquqi manevrlər yaradırdılar:



"AXC-Müsavat hakimiyyətinin ölkəni saldıqları bərbad vəziyyət orduda daha acınacaqlı hal almışdı. Ordunun maddi-texniki təminatı, hərbi arsenalı yox idi, ordunun döyüş ruhunu saxlamaq üçün arxa cəbhədə milli birlik də təmin edilməmişdi. Ön cəbhədə döyüşlərin getdiyi vaxt arxa cəbhədə vəzifə davası aparılır, siyasi qruplaşmalar arasında açıq silahlı mübarizə gedirdi. Silahlı qüvvələr daxilindəki müxtəlif birləşmələr də ayrı-ayrı siyasi və maraq qruplarının tabeliyində idi. Paytaxtda vəzifə davasına çıxan siyasi qruplar daha çox pay qoparmaq üçün həmin silahlı birləşmələri cəbhə xəttindən geri çəkərək Bakıya gətirir, siyasi mübarizədə, vəzifə bölgüsündə təzyiq aləti kimi istifadə edirdilər.

Cəbhədə döyüşlərin getdiyi vaxt Surət Hüseynovun, İsgəndər Həmidovun, Rəhim Qazıyevin, Rövşən Cavadovun və digərlərinin silahlı dəstələrinin Bakı küçələrində avtomatlarla gəzdiyini, insanlara divan tutduğunu, vəzifə bölgüsündə daha çox pay qoparmaq üçün paytaxtı hərbi poliqona çevirdiklərini xalq unutmayıb.

Silahlı birləşmələr Bakıda vəzifə davasında iştirak etdiyi vaxt isə cəbhə müdafiəsiz qalmışdı. Nəticədə erməni işğalçıları Dağlıq Qarabağla birgə ətraf yeddi rayonu da zəbt etməyə nail oldular.

Tarixi saxtalaşdırmağa çalışanlar cavab versinlər: Belə bir vəziyyətdə Heydər Əliyev hansı ordu, hansı güc strukturu və hansı səlahiyyətlə ərazi itkilərinin qarşını ala bilərdi?".

Prezidentin köməkçisi vurğulayıb ki, parlamentin sədri kimi heç bir güc strukturuna çıxışı olmayan və buna görə də işğalın qarşısını ala bilməyən Heydər Əliyev Azərbaycanı etnik və regional zəmində parçalanma təhlükəsindən, vətəndaş müharibəsi və xaosdan xilas edə bildi:

"Bakıya qayıtdıqdan sonra cəmi 6 ay ərzində Heydər Əliyevin Azərbaycanın xilası üçün nələr etdiyini xalqımız unutmayıb.

**1.** Heydər Əliyev AXC-Müsavat tandeminin səriştəsiz idarəçiliyi, xəyanət səviyyəli səhlənkarlığı üzündən ölkəni məhvolma təhlükəsindən, silahlı vətəndaş qarşıdurması girdabından xilas etdi;

**2.** Heydər Əliyev Azərbaycanı yaxşı halda federallaşmaya, əslində isə siyasi xəritədən silməyə hesablanmış etnik-regional separatizm meyllərinə qarşı ölkənin bütün vətəndaşlarını vahid dövlətçilik-azərbaycançılıq ideyası ətrafında yığaraq səfərbər etdi. İstər cənub, istər şimal-şərq, istərsə də şimal-qərb regionlarının ziyalıları, sıravi vətəndaşları Heydər Əliyevin çağırışlarına səs verərək separatizm ocaqlarını söndürdülər və Azərbaycan bölünüb parçalanmaq təhlükəsindən xilas oldu;

**3.** Heydər Əliyev mövcud olmayan, "səhra komandirlərinin" daxili razborkalar, müdafiə nazirinin isə digər nazirliklər və Prezident Aparatını zəbt etmək üçün istifadə etdiyi silahlı qüvvələrdən qısa müddətə real, vətənpərvər əsgər və zabitlərdən komplektləşdirilmiş milli ordu qurmağa nail oldu. Bu ordu Horadizdə, Cəbrayılda ilk ciddi uğurlarına qazandı, indi bəzi memuarlardan bəlli olduğu kimi, digər paytaxtlarda cızılan və Azərbaycanın müxtəlif ölkələr arasında bölüşdürülməsini nəzərdə tutan planları pozmaq gücündə olduğunu sübut etdi. Məhz ordumuzun qısa müddətdə toparlanıb real gücə çevrilməsi Ermənistanı atəşkəs müqaviləsinə getməyə məcbur etdi;

**4.** Heydər Əliyev Azərbaycan daxilində günü-gündən genişlənən xaosun, hüquqi özbaşınalığın, "polis-reket" sisteminin, qaratçiliyin, "qanuni oğrular" hakimiyyətinin qarşısını aldı. Ölkədə qayda-qanun bərqərar edildi. İndi sevmədiyiniz ifadələri təkrarlayaq: insanlar gecələr oğurlanmaq, şikəst edilmək qorxusu olmadan küçəyə çıxmağa başladı;

**5.** Heydər Əliyev Azərbaycanı, sizin öz hakimiyyətinizi və bütövlükdə gənc dövləti bütün dünyaya düşmən edən bərbad xarici siyasətdən xilas etdi. Bəzən Ustad müəllim kimi Azərbaycanın xəritəsi ilə dünyanı dolaşaraq gerçəklərimizi, problemlərimizi dünyaya tanıtdı, irqi-etnik təəssübkeşliklə dünyaya meydan oxumağın, "İranı viran etmək", "Rusiyanı parçalamaq", "Çinə türk bayraqları sancmaq" xülyalarının xarici siyasət kursu olmadığına dünyanı inandıra bildi, Ermənistan istisna olmaqla, heç bir qonşu dövlətlə problemi olmayan, komplimentar xarici siyasət kursu tətbiq etdi.

Mən sizə sual verirəm: belə çətin, param-parça vəziyyətdə məsuliyyətinizi, dövlət tərbiyəsini dərk etmədən atıb qaçdığınız Azərbaycanın siyasi, sizinsə fiziki varlığınızı xilas etdiyi üçünmü Heydər Əliyevin ünvanına ittihamlar səsləndirirsiniz?

Daxili işlər naziri dünyanı nüvə müharibəsi ilə təhdid edən, müdafiə naziri Prezident və spikerə meydan oxuyan, hər səhra komandiri paytaxta qoşun çəkib vəzifə davasına çıxanlarmı torpağın itkisində günahkardır, yoxsa Azərbaycanı bu rəzalətdən, anormal vəziyyətdən, siyasi və fiziki məhvdən xilas edən Heydər Əliyevmi?

Əli Kərimli, tarix məhz onu saxtalaşdırmaq istədiyiniz üçün sizlərə əsl yerinizi göstərdi. Siyasi bioqrafiyanız çoxdan bitib, siz indi adi bloger kimi maraq doğurursunuz...".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Azərbaycan-Türkiyə-Rusiya üçbucağı Ermənistanın hava üstünlüyü strategiyasını heçə endirir

**S-400 zenit raket komplekslərinin alışından sonra qardaş Türkiyənin Rusiyadan Su-35 və Su-57 döyüş təyyarələrini də ala biləcəyinə dair məlumatlar işğalçı Ermənistanda kifayət qədər böyük təşvişə səbəb olub. Burada fikirlər səslənir ki, silah ticarəti həm Türkiyənin bölgədə mövqeyinin güclənməsinə rəvac verəcək, həm də həmin hərbi texnikanın Ankara vasitəsilə Bakıya çatdırılması mümkünləşə bilər.**

Xatıraladaq ki, bu məsələ son dövrlərdə erməni mediasında da aktual müzakirə predmetlərindən biridir. Elə bu günlərdə "1in.am" portalı da sözügedən məsələ barədə yazırdı ki, Rusiya yeni müasir silahlarını həm birbaşa, həm də dolayı yolla Azərbaycana satmağa hazırdır və bu məsələdə İrəvanın narahatlığı onun zərrə qədər də vecinə deyil. Qeyd olunurdu ki, İrəvan Rusiyadan Su-30 qırıcılarını almağa çalışdığı, amma bunun hələ nə vaxt reallaşacağının bilinmədiyi bir vaxtda Bakı daha üstün olan Su-35 təyyarələrinə yiyələnə bilər: "Türkiyə çoxfunksiyalı Su-35 rus qırıcı təyyarələrini əldə etmək imkanlarına baxır. Əvvəllər rus hərbi-sənaye kompleksinin yüksək çinli bir məmuru bu qırıcıları Türkiyəyə təmin etməyə hazırlıq haqqında bəyanat vermişdi. Bu təyyarələrin əldə edilməsini şərtləndirən odur ki, ABŞ sanksiyalar kontekstində Ankaraya yeni amerikan F-35 təyyarələrini verməkdən imtina edib. Vaşinqtonun bu qərarına da səbəb o olub ki, Ankara, çoxsaylı xəbərdarlığa baxmayaraq, rus S-400 sistemi almaqdan imtina etməyib.

Yeni rus-türk hava anlaşmasının reallaşma imkanının mümkün olub-olmaması hələlik aydın deyil, lakin Ermənistan üçün bu anlaşma, ehtimal ki, S-400 sisteminə nisbətən daha böyük qayğıya səbəb olur. Çünki S-400 sistemi müdafiə təyinatlı silah sistemi olduğu halda, çoxfunksiyalı Su-35 qırıcı təyyarələri ən yeni rus hücum silahlarıdır. Problem də ondadır ki, Ermənistan özünün yeni müdafiə strategiyasının əsasında hava üstünlüyü duran hücum strategiyasına keçdiyini bəyan edib. Ermənistan buna nail olmaq üçün də Rusiyadan çoxfunksiyalı Su-30 təyyarələri alır, onların ilk partiyasının gəlişi 2020-ci ilin yanvar ayında gözlənir. Amma bunun o vaxt reallaşmasına da tam təminat yoxdur. Hələ ilkin mərhələdə bir sıra rus ekspertlərində erməni-rus anlaşmasının mümkünlüyü haqqında belə bir fikir vardı: Moskva bu təyyarələri İrəvana ona görə satır ki, sonra Bakıya Su-35-ləri satsın. Yeri gəlmişkən, rus hərbi-sənayeçiləri onların Bakıya tədarük edilməsinə hazırlıq haqqında da danışırdılar. Əlbəttə, onların, necə deyərlər, peşəkar hazırlığı bir şeydir, məsələnin siyasi həlli aspekti isə başqa bir şey. Hərbi sənayeçilər hazır ola bilərlər, ancaq bunu etmək və ya etməmək məsələsini siyasi rəhbərlik həll edəcək. Rusiyanın siyasi rəhbərliyi aprel müharibəsindən və Ermənistanda "məxməri inqilab"dan sonra müəyyən şərtlərə görə Bakıya belə strateji əhəmiyyətli silahların satışında çətinlik çəkir. Çünki İrəvan "məxməri inqilab"dan sonra mümkün və ya möhtəməl müharibəyə görə siyasi məsuliyyəti Rusiyanın üzərinə qoyub. Burada problemlər, həqiqətən, ciddidir. Lakin, eyni zamanda, narahatlıq üçün səbəb də ciddiləşir. Belə ki, müəyyən reallıqlara görə İrəvan qarşısında çətinlik çəkən Rusiya Bakını, necə deyərlər, Türkiyə vasitəsilə silahlandıra bilər".

Qeyd edilənlər erməni mediasında yenidən gündəmə gəlib. Amma bu dəfə qarşı tərəf diqqəti Su-35-dən daha müasir olan Su-57 döyüş təyyarələrinə yönəldir. İddialar səslənir ki, Azərbaycan və Türkiyə eyni vaxtda bu müasir silahlara yiyələnə bilər. Belə vəziyyət isə Ermənistan üçün hərbi baxımdan Azərbaycanla müqayisədə daha zəif duruma düşmək deməkdir. Erməni mediası burada diqqəti ona yönəldir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiyaya səfəri zamanı həmkarı Vladimir Putin onu yalnız dondurmaya deyil, həmçinin, Su-35 və Su-57 çoxfunksiyalı 5-ci nəsil qırıcılara da qonaq edib. Rusiya bu qırıcıları Türkiyəyə təklif edir. Erməni şərhçi Aram Armatuni xatırladır ki, Moskva ABŞ-ın Türkiyəyə beşinci nəsil F-35 qırıcı təyyarələrini satmaqdan imtina etməsindən faydalanmağa çalışır: "Bununla da ABŞ Türkiyəyə Rusiya istehsalı S-400 zenit raket kompleksini aldığına görə sanksiya tətbiq edib. Türkiyə sanksiyaların təhdidinə çökməyərək hazırda Ərdoğan səviyyəsində Rusiya qırıcılarına maraq göstərməkdədir. Bu vəziyyət, təbii olaraq, Ermənistanı maraqlandırmalıdır. Həm də sadəcə Rusiya-Türkiyə hərbi-texniki əməkdaşlığı baxımından deyil, məsələyə daha geniş yanaşılmalıdır. Məsələ burasındadır ki, rus qırıcıları Ankaraya çatdıqdan sonra Bakıda peyda ola bilər". Etiraf edilir ki, əgər Türkiyəyə verilən təyyarələr Azərbaycan tərəfə verilsə, o zaman bunun Ermənistan üçün ağır nəticələri ola bilər: "Ankara əldə etdiyi bəzi rus qırıcılarını təkrarən Bakıya sata bilər. Ən azı bunun nəzəri bir təhlükəsi mövcuddur. Bu o deməkdir ki, İrəvan bir tərəfdən bu prosesləri diqqətlə izləməli, digər tərəfdən təhlükənin nəzəri sahədən parktiki sahəyə keçid ehtimalı olduqda buna müqavimət göstərərək, zərurət olduğu halda qarşısını almalıdır. İstənilən halda, açıq şəkildə görünür ki, Rusiya-Türkiyə hərbi-texniki sövdələşməsi halında İrəvan bu anlaşmanın Rusiya və Azərbaycan arasında vasitəçilik ticarətinə çevrilməyəcəyinə dair Moskvadan zəmanət almalıdır. Bu hərbi-texniki əməkdaşlıq Ermənistanın təhlükəsizliyinə təhdid yaradır, eyni zamanda, Ermənistanın hava üstünlüyü strategiyasının perspektivini təhlükə altına alır. Hava üstünlüyü strategiyasına keçid layihəsi barədə Müdafiə Nazirliyi daha öncə məlumat verib. Amma Bakı yeni texnika alışı ilə bunları heçə endirir. Özü də nəzərə almaq lazımdır ki, Azərbaycan onsuz da hava sahəsində hərbi texnikanın say və tərkibi baxımından üstünlüyə malikdir. Bura ən müasir Su-57 çoxfunksiyalı 5-ci nəsil qırıcıları əlavə edilsə, onda Ermənistan üçün Qarabağda savaşın yenilənməsinin hansı dəhşətli nəticələrə gətirib çıxaracağını təsəvvür etmək o qədər də çətin deyil".

Digər tərəfdən, ermənilərdə belə iddialar da səslənir ki, hətta yeni döyüş təyyarələri Türkiyə vasitəsilə Azərbaycana satılmasa belə, Ankaranın onlardan Bakının razılığı ilə Qarabağ və Naxçıvanda ermənilərə qarşı istifadəsi da mümkün ssenarilərdəndir. Elə bu fonda, Azərbaycanın Türkiyə Silahlı Qüvvələrinin iştirakı ilə birgə artıq dördüncü ildir keçirdiyi hərbi təlimlər düşmən ölkədə həm də böyük xof yaradır. Erməni hərbi ekspert Van Ambartsumyan bildirir ki, bu təlimlər Ermənistana ciddi təhlükə yaradır: "Bu, əslində, Hərbi Hava Qüvvələrinin təlimləridir və Türkiyə bu təlimlərdə öz silahları ilə təmsil olunur". Ekspert qeyd edib ki, təlimlərə Ankara təkcə aviasiya texnikası ilə deyil, həm də hava və yerüstü izləmə vasitələri cəlb edib. Erməni ekspertin iddiasına görə, növbəti təlimlərdən sonra 3000 türk əsgəri Naxçıvanda yerləşdirilib: "Onlar orada hərbi baza yarada bilər. Zənnimcə, indi onların sayı daha çox olmalıdır. Azərbaycan bundan çox ilhamlanır. Çünki NATO ölkələrinin ikinci ən böyük ordusunun hərbi bazalarını öz ərazilərinə yerləşdirə bilər". Xatırladaq ki, Azərbaycanla Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz qartalı-2019" birgə təlimləri başlayıb. Təlimlər fonunda, Azərbaycan və türkiyə hərbçilərinin bir yerdə olması, bunun xüsusən Naxçıvan istiqamətində də təzahür etməsi Ermənistanı ciddi şəkildə əndişələndirir. Məsələ ilə bağlı erməni şərhçi İzabel Muradyan diqqəti ilk növbədə buna yönəldir ki, Azərbaycan 2012-ci ildən etibarən Naxçıvan Muxtar Respublikasının ərazisində öz hərbi iştirakını durmadan artırır: "Proses indi də davam edir. Naxçıvandakı ordu birləşmələrinin gücləndirilməsində Türkiyə də Azərbaycana hərtərəfli yardım göstərir. Bunlar Ermənistanın indiki hakimiyyəti ilə Rusiya arasında münasibətlərin soyuması fonunda baş verir. Prosesin digər maraqlı tərəfi Qars müqaviləsinin 100 illiyinin yaxınlaşması ilə bağlıdır. Rusiya bu müqavilədə Türkiyə ilə bərabər qarant rolundadır.

Elə bu kontekstdə Azərbaycanın Naxçıvandakı hərbi iştirakını durmadan gücləndirməsi diqqətdən yayınmır. Azərbaycanın Naxçıvandakı hərbi bazaları Ermənistan üçün bu mənada getdikcə daha ciddi problemə çevrilir. Azərbaycan Naxçıvandakı ordu qüvvələrini güclü silah sistemləri ilə, o cümlədən, TR-300 "Qasırğa" reaktiv artilleriya sistemləri, "Smerç" reaktiv yaylım atəşi qurğuları və digərləri ilə təchiz edib. Potensial irimiqyaslı münaqişədə hətta Naxçıvan birbaşa iştirak etməsə də, istənilən halda, Ermənistan qoşunlarının bir hissəsini Dağlıq Qarabağa göndərmək əvəzinə, muxtar respublika ilə sərhəddə saxlamalı olacaq. Bu da, əlbəttə, hərbi planda Azərbaycana sərf edəcək. Hərbi əməliyyatlar başlayarsa, Azərbaycanın əsas vəzifəsi Naxçıvandan platforma kimi istifadə edib Ermənistanın strateji hədəflərinə nöqtə zərbələri endirmək olacaq. Belə hədəflərdən biri də Ermənistanın şərqində dislokasiya olunmuş S-300 PT zenit-raket kompleksləridir. Hansı ki, bu sistemlər Dağlıq Qarabağ regionu üzərində hava məkanına nəzarət edir. Lakin həmin komplekslər vurulsa, qarşıdurma daha qlobal miqyas alar. Hər iki tərəf öz güclü müttəfiqlərinin köməyinə müraciət edər. Və belə məqamda Türkiyənin Azərbaycanın tərəfində münaqişəyə müdaxiləsi birmənalı olacaq, amma Ermənistandakı indiki hakim rejimi nəzərə alaraq Rusiyanın köməyə gələcəyi o qədər də aydın, qəti deyil". Hesab edilir ki, İrəvanın Moskvanı özündən uzaqlaşdırması, əvəzində Rusiyanın Azərbaycan və Türkiyə ilə yaxınlaşması artıq regionda yeni vəziyyət yaradıb. Bu vəziyyət isə, öz növbəsində, Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından Azərbaycanın maraqları ilə tam şəkildə uzlaşır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Rusiya Prezidenti Vladimir Putinin Ermənistanın sabiq dövlət başçısı, hazırda həbsdə olan Robert Köçəryanın 65 illiyi ilə bağlı ona təbrik məktubu ünvanlaması İrəvanda indi ən çox müzakirə predmetinə çevrilən məsələlərdən biridir.**

# Kreml İrəvana 1 ay vaxt qoydu - Köçəryan buraxılmasa...

Burada hesab edilir ki, baş verənlər Kremlin Nikol Paşinyan iqtidarına qarşı hansı mövqedə olmasını göstərməklə yanaşı, həm də Moskvanın İrəvana növbəti xəbərdarlığıdır.

Xatırladaq ki, müvafiq məktubunda Putin iki ölkə arasında müttəfiqlik əlaqələrərinin möhkəmlənməsində Köçəryanın "böyük zəhməti" olduğunu bildirərək onu Rusiyanın əsl dostu adlandırıb. Siyasi ekspertlər hesab edirlər ki, Rusiya Prezidenti məktubunda Köçəryanı Rusiyanın əsl dostu adlandırmaqla həm də Paşinyana xəbərdarlıq edib. Yəni Paşinyan Rusiyanın əsl dostunu tutdurmaqla iki ölkə arasındakı "müttəfiqliyi" şübhə altında qoyub. Bu həm də o deməkdir ki, Paşinyanın bütün yarınmalarına rəğmən, Rusiyanın ona yanaşması dəyişməyib, dəyişməyəcək. İndi məlumatlar gəzir ki, gələn aya kimi Paşinyan Köçəryanı həbsdən buraxmasa, onda Putinin həmin vaxt Ermənistana baş tutacaq səfəri də təxirə salınacaq. Moskva artıq bu xüsusda Ermənistanı diplomatik kanallar vasitəsilə xəbərdar edib. Paşinyan iqtidarına yaxınlığı ilə tanınan erməni politoloq Arkadi Vardanyan bildirib ki, Moskva Ermənistandakı indiki hakimiyyətdən xilas olmağa çalışır. Onun sözlərinə görə, baş vermiş inqilab Rusiyaya sərf etmir və Ermənistan onların təsir dairəsindən qopur. Vardanyan, ümumiliklə, Rusiya Prezidenti Vladimir Putinin Ermənistana gəlməyəcəyi variantını da mümkün hesab edir: "Başa düşdüyüm qədər, onlar hətta şantaja əl atıblar və deyiblər ki, Putinin səfərinə qədər Köçəryan azadlığa çıxmasa, o, ümumiyyətlə, gəlməyəcək. Biz də ondan ötrü çox darıxmışdıq, bizə heç lazım da deyil ki, Vladimir Vladimiroviç gəlsin". O bildirib ki, belə olarsa, Ermənistan Avrasiya İqtisadi Birliyinə üzvlüyünü və bu kimi tədbirlərdə iştirakını yenidən nəzərdən keçirməlidir: "Yalançı quruluşdur, Rusiyanın təşkil etdiyi boş quruluşlardan biridir. Quruluşun məqsədi hər yolla Sovet İttifaqını bərpa etmək idi. Saxta quruluşdur, bunun üçün yalnız pul ödəyirdik. Mən olsaydım, Ermənistanı AİB-dən çıxarardım, rus hərbi bazasını da, Mixail Saakaşvili o zaman etdiyi kimi, buradan qovardım".

Rus ekspert Stanislav Tarasov da Ermənistanla münasibətlərdə gərginlyin artan xətt üzrə inkişaf etdyini bildirir. Onun sözlərinə görə, Paşinyan Rusiyanın arxasında yenə də hər hansı oyun aparmaq istəyir: "Paşinyan bəyan edir ki, diaspor Ermənistan üçün işləməlidir. Belə bəyanat verildiyi halda hansı diaspordan söhbət gedir? Rusiyada 1,5-2 milyon erməni yaşayır və onlar Ermənistan yox, Rusiya pasportları daşıyır. Sarkisyanın dövründəki Ermənistan Paşinyanın dövründəki Ermənistandan daha müsbət təsir bağışlayırdı. Oktyabr ayında Putinin Ermənistana səfərinə nəzər salaq. İndiyədək Moskvada Köçəryana qarşı aparılan cinayət işini dərk edə bilmirlər. Bu məsələdə şəxsi münasibətlər rol oynayır. Köçəryanla Putin dostdur. Putin bir neçə dəfə türmədə Köçəryana zəng edib. Onun ad gününü təbrik edib. Bəzi oyun qaydaları var, xüsusilə də Ermənistan Konstitusiyasına görə, prezidentlər və sabiq prezidentlər toxunulmaz şəxsdir və bu hadisə isə qisas elementlərinin təzahürüdür. Ölkə qarşısında ciddi iqtisadi çağırışlar durduğu halda, bu cür işlərlə məşğul olmaq ehtiyatlı münasibət göstərilməsini tələb edir. Putinin gəlib-gəlməyəcəyinin birbaşa Köçəryanla bağlı olduğuna əmin deyiləm. Belə bir bəyanatın məsuliyyətini öz üzərimə götürmək istəmirəm. Köçəryana əl vurmaq lazım deyildi kimi anlayışı Paşinyana başa salmaq üçün belə bir addıma əl atacağını ehtimal edirəm. Rəsmi gündəliyə əsasən, Putin İrəvana gəlmək niyyətindədir, lakin əgər gəlməzsə, buna görə təəccüblənməyəcəm". "Son vaxtlar Serj Sarkisyanın da dəmir barmaqlıqlar arxasına düşəcəyinə dair ehtimallar olduğu və belə bir hal baş verərsə, Köçəryanla bağlı münasibət Sarkisyana qarşı da göstəriləcəkmi" sualını cavablandıran ekspert bildirib: "Belə olan halda dost olduqları deyilən Levon Ter-Petrosyana nə üçün toxunulmur? Bu insanlar pis və ya yaxşı Ermənistan dövlətinin möhkəmləndirilməsində xidmət göstəriblər. Paşinyanın belə bir hərəkətə əl atması ağlasığmazdır. O, cəmi 1,5 il hakimiyyətdədir. Onun heç normal səfərləri belə baş tutmayıb. Heç bir praqmatik əlamətlər olmayıb. Putinlə 5 dəfə görüşüb. "İnqilab, demokratiya" kimi öz ifadələrinə inansaq, Paşinyan ABŞ Prezidenti Trampla görüşməyə nail ola bilmir. NATO-ya səfər etdiyini, Avropa liderlərinin əlini sıxdığını etiraf etsə də, həmin dairələrin Ermənistana səfərinin baş tutmadığını vurğulayıb.



Bu vəziyyətdə Rusiya ilə münasibətləri pisləşdirmək Ermənistan hakimiyyəti üçün yaxşı heç nə vəd etmir. Baş verən hadisələri, o cümlədən, siyasi xarakterli tədbirləri rus tərəfi diqqətlə izləyir. Bu məsələdə Paşinyanı kimsə sanki idarə edir. Belə bir şəraitdə onun növbədənkənar seçkilərə əl atmasına təəccüb etmərəm. Lakin bu dəfə bu seçkilərdə qalib gələ biləcəyi məsələsi sual altındadır. Növbədənkənar seçkilərə əl atmaqla qalib gəlmədiyi halda Paşinyan baş nazir olmayacaq. Belə olan halda isə hazırda həbs etdirmək istədiyi şəxslər onu həbs edəcəklər". Hesab edilir ki, bu durumda Moskvanın İrəvan daxilində baş verənlərə sərt müdaxiləsi Ermənistanda hakimiyyət dəyişikliyini daha da tezləşdirəcək. Hər halda, hadisələrin əsas etibarilə məhz bu istiqamətdə cərəyan etməsi aydın müşahidə olunur. Gözlənir ki, gələn ayın əvvəlinə kimi Köçəryan azadlığa çıxmasa, onda Moskva konkret fəaliyyətə keçərək Paşinyan iqtidarı üçün daha böyük problemlər yaratmağa çalışacaq. Bu prosesdə isə Kreml məhz Köçəryanın lideri olduğu "Qarabağ klanı"ndan yararlanmağa çalışacaq. Elə "Qarabağ klanı" da bu istiqamətdə aktiv fəaliyyətə başlayıb.

***Nahid SALAYEV***

# SSRİ-nin Böyük Vətən Müharibəsi missiyasına Britaniya Baş nazirindən hörmətsiz yanaşma...

**Cəbi Bəhramov:** *"Britaniya Baş nazirinin səsləndirdiyi fikrə gəlincə, məsələ bundan ibarətdir, İngiltərə hər vasitə ilə çalışırdı ki, Almaniyanı SSRİ-nin üzərinə qaldırsın"*

**Dünya tarixinə ən dəhşətli müharibə kimi düşən İkinci Dünya Müharibəsi (Böyük Vətən Müharibəsi) SSRİ-nin faşizm üzərində qələbəsi ilə başa çatdı. Qələbənin əldə edilməsində Azərbaycan 100 minlərlə soydaşı və Bakı nefti ilə iştirak etdi.**

Faşizm üzərində qələbənin 74-cü ilini yaşayırıq. Müharibə sona çatdıqdan sonra bu hadisə ilə əlaqədar meydana saysız sənəd, arxiv materialı, nəşrlər, filmlər çıxdı. Sonrakı dövrlərdə Hitler Almaniyasına qarşı mübarizədə SSRİ ilə müttəfiq olan və olmayan dövlətlərin də bu müharibə ilə bağlı müxtəlif ziddiyyətli fikirləri meydana çıxdı. İkinci Dünya Müharibəsi dövründə SSRİ ilə müttəfiq olan İngiltərənin (Britaniya) hazırkı Baş naziri Boris Conson bu müharibədə SSRİ ilə faşist Almaniyasının eyni mövqeni bölüşdüyünü qeyd edib. O bildirib ki, faşistlər Polşaya hücum edərkən SSRİ də ora qoşun yeridib, bunun nəticəsində də Polşa SSRİ və Hitler Almaniyası qoşunlarının arasında qalıb, SSRİ Polşaya kömək göstərməyib. Baş nazir vurğulayıb ki, həmin vaxt SSRİ Polşanı müdafiə edə bilərdi.

Məsələni şərh edən Rusiya diplomatları isə Britaniya Baş nazirinin məsələyə düzgün yanaşmadığını qeyd edirlər. Onların fikrincə, o dövrdə SSRİ-nin anti-Hitler koalisiyasının yaradılması təklifini məhz Britaniya sabotaj edib, o bu təkliflə razılaşmayıb. Diplomatlar, həmçinin, hesab edirlər ki, bu məsələyə siyasətçilər yox, tarixçilər münasibət bildirilməlidirlər. Rusiyalı diplomatların sözlərinə görə, Rusiyanın və Britaniyanın sadə vətəndaşları İkinci Dünya Müharibəsində həlak olanların xatirəsini böyük ehtiramla anırlar.

Bildirək ki, B.Conson qalmaqallara səbəb olan bu fikirləri 1 sentyabr - İkinci Dünya Müharibəsinin başlandığı gün münasibətilə səsləndirib.

Qeyd edək ki, İkinci Dünya Müharibəsi 1 sentyabr 1939-cu ildə faşist Almaniyasının Polşaya hücumu ilə başlayıb.

Britaniya Baş nazirinin fikirlərini şərh edən tarixçilər hesab edirlər ki, B.Consonun məsələyə yanaşmasında müəyyən qədər həqiqət var. Tarixçilərin bildiyinə görə, 1939-cu il avqustun 23-də Almaniya ilə SSRİ arasında bir-birinə hücum etməmək haqqında on il müddətinə Molotov-Ribbentrop paktı imzalanıb.

1939-cu ilin yazında Qərb ölkələri ilə faşist bloku dövlətləri arasında ziddiyyətlər yüksək səviyyəyə çatdı. Təminat verilməsinə baxmayaraq, Almaniya 1939-cu ilin martında Çexoslovakiyanı zəbt etdi və parçaladı. "Polşa böhranı" meydana çıxdı. Belə bir şəraitdə təcavüzkarı cilovlamaq məqsədilə 1939-cu ilin martında SSRİ, Böyük Britaniya və Fransa arasında danışıqlar başladı. Lakin bu danışıqlar heç bir nəticə vermədikdə SSRİ Almaniya ilə danışıqlara getdi. 1939-cu il avqustun 23-də Almaniya ilə SSRİ arasında on il müddətinə bir-birinə hücum etməmək barədə Molotov-Ribbentrop paktı bağlandı. Həmçinin, ona əlavə olaraq Avropanı nüfuz dairələrinə bölmək barədə gizli protokol da imzalandı.

Tarixçilərin verdiyi bilgiyə görə, gizli protokolda Almaniya əvvəllər Rusiya İmperiyasına daxil olmuş Finlandiya, Latviya, Estoniya və Bessarabiya üzərində SSRİ-nin maraq dairəsini tanıdı. Tərəflər Polşanı bölüşdürmək barədə də razılığa gəldilər. Müqavilə nəticəsində SSRİ Şərqi Avropanın xəritəsinin dəyişdirilməsinin iştirakçısına çevrildi. Həmin sənədlərin imzalanmasının birbaşa nəticəsi Hitlerin Polşaya qarşı təcavüzə başlamaq barədə qəti qərar qəbul etməsindən ibarət oldu. Bu da İkinci Dünya Müharibəsinin başlanmasına gətirib çıxardı.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramovun sözlərinə görə, SSRİ və faşist Almaniyası dünyanı bölüşdürmək məsələsində razılığa gəliblər. "Bu gün artıq İkinci Dünya Müharibəsi ilə bağlı arxivlər açılıb, çoxlu sənəd üzə çıxıb. Həmin dövrdə SSRİ və faşist Almaniyası arasındakı münasibətlər məlumdur. İkinci Dünya Müharibəsinin başlamasının əsas səbəbi Bakı neftini ələ keçirmək idi. Dünyanı bölüşdürmək, güclü enerji resurslarına sahib olmaq məsələsi əsas götürülmüşdü. SSRİ-nin faşist Almaniyasına münasibəti, onun bu ölkə ilə bağlı tutduğu mövqe keçmiş Sovet kəşfiyyatçısı Viktor Suvorovun "Buzqıran m günü" kitabında geniş şəkildə əks olunub. Dərc olunan arxiv materiallarında da göstərilir ki, Hitler Almaniyası Polşaya daxil olduqdan sonra SSRİ ordusu da ora daxil oldu. Hətta onlar bir yerdə parad da keçiriblər. Bu fakt da var, bu sənəddir. Sözsüz ki, hər bir dövlət öz mənafeyini müdafiə edib. 1939-cu ildə SSRİ və Almaniya arasında bir-birinə hücum etməməklə bağlı imzalanan Molotov-Ribbentrop müqaviləsinin gizli protokolu var. Həmin protokolda Avropanın iki nüfuz dairəsinə bölünməsi məsələsi var. Britaniya Baş nazirinin səsləndirdiyi fikrə gəlincə, məsələ bundan ibarətdir, İngiltərə hər vasitə ilə çalışırdı ki, Almaniyanı SSRİ-nin üzərinə qaldırsın. Onu da qeyd edim ki, SSRİ-ni məhv etmək üçün Fransanın, İngiltərənin baş qərargahlarında xüsusi planlar hazırlanmışdı. Uzağa getməyək, Çapay Sultanovun "İstoriya ne lyubit sosloqatelnoqo nakloneniya, vsyoje" adlı kitabı var. 2011-ci ildə nəşr olunan bu kitabda hətta o protokollar da nəşr edilib. Həmin nəşrdə qeyd edilir ki, SSRİ-yə hücum başqa ölkələrlə birgə cənubdan başlaya bilərdi. Orada İranın da iştirakı var. Türkiyəni bu məsələyə qatmaq olmaz, Türkiyə burada öz neytral mövqeyini saxlayıb, hərçənd ki, ondan da şübhələniblər. Bu kitabda bir xəritə də verilib və orada da əsas məsələ kimi Bakı neftini ələ keçirmək olub. Bu, almanların, ingilis və fransızların da planında olub. Onların planı Bakı neftini ələ keçirməklə SSRİ-nin məhvinə nail olmaq idi. Ona görə də 1920-ci ildə Azərbaycanın işğalı təsadüfi xarakter daşımır. Çünki Bakı XX əsrin 50-ci illərinə qədər keçmiş SSRİ-nin əsas neft bazası olub" - deyə C.Bəhramov vurğuladı.



*"SSRİ-ni məhv etmək üçün Fransanın, İngiltərənin baş qərargahlarında xüsusi planlar hazırlanmışdı"*

***İradə SARIYEVA***

**Cari ilin əvvəlində fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı imzalanan fərmandan sonra problemli kreditlərin həcmi azaldı. Məlumdur ki, həmin ərəfəyə qədər ölkədə problemli kreditlərin həcmi 1 milyard 620 milyon manat idi və bu, kredit portfelinin təxminən 14 faizini təşkil edirdi. Eyni zamanda, problemli kreditlərin həcminin çox olması ilə yanaşı, kredit portfelindəki payının çoxalması da müşahidə olunur.**

# Problemli kreditlərin həllindən sonra da bank sektorunda vəziyyət dəyişmədi...




*"AtaBank": "Hazırda "AtaBank"ın sağlamlaşdırılması istiqamətində müəyyən işlər görülür"*

*Pərviz Heydərov: "Bank sektorunda müsbət meyllər artıq bir müddətdir müşahidə edilir"*

*"AccessBank" - İlkin Əhmədov: "Məlum fərman, sözsüz ki, ümumilikdə, bütün sektora, o cümlədən, bu sektorun aparıcı oyunçularından biri olan "AccessBank"a müsbət təsir etdi"*

Nəzərə alaq ki, beynəlxalq praktikada, adətən, problemli kreditlərin kredit portfelindəki payı təqribən 5 faizə yaxın olur. Hətta inkişaf etmiş ölkələrdə bu, 3 faizə yaxındır. Azərbaycanda isə bu göstərici ikirəqəmli idi. Bu baxımdan 2015-ci ildən problemli kreditlərin həcmində müşahidə edilən artımlar, eləcə də kredit portfelinin kiçilməsi, nəticə etibarilə, problemli kreditlərin kredit portfelində payının artmasına gətirib çıxarıb.

Problemli kreditlərlə bağlı Azərbaycan Prezidentinin məlum fərmanının icrası devalvasiya nəticəsində bank sektorunun və vətəndaşların boynundan asılan "problemli kredit yükü"nü həll etdi. Bu fərmandan sonra bank sektorunun vəziyyətinin yaxşılaşması gözlənilirdi. Hətta belə bir fikir vardı ki, fərmanın icrasından sonra Azərbaycanda bank sahəsi yenindən canlanacaq. Maraqlıdır, hazırda həmin canlanma hiss edilirmi?

"AtaBank"ın ictimaiyyətlə əlaqələr şöbəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, fiziki şəxslərin problemli kreditlərinin həll olunması ilə bağlı imzalanan fərmandan sonra bankın vəziyyəti nisbətən yaxşılaşıb: "Hazırda "AtaBank"ın sağlamlaşdırılması istiqamətində müəyyən işlər görülür".

"AccessBank"ın PR meneceri İlkin Əhmədov qəzetimizə açıqlamasında qeyd etdi ki, ölkə başçısının müvafiq fərmanı, sözsüz ki, ümumilikdə, bütün sektora, o cümlədən, bu sektorun aparıcı oyunçularından biri olan "AccessBank"a müsbət təsir etdi: "Bundan öncə də "AccessBank"ın rəhbər şəxsləri öz çıxışlarında bu fərmanı ölkə rəhbərliyinin indiyədək reallaşdırdığı ən önəmli sosial layihələrdən biri kimi qiymətləndirib. Çünki fərmanın sosial əhəmiyyəti kifayət qədər yüksəkdir. Prezident 800 min nəfərin kredit problemini birdəfəlik həll etdi. Dövlət başçısı bu fərmanı fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq və dövlət dəstəyini təmin etmək məqsədilə imzalayıb. Şübhəsiz ki, Prezident burada bank sektorunun maraqlarını da nəzərə alıb. Bunun üçün banklara 682 milyon manatadək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit verilib. Ölkə başçısı problemli kreditlərin həllində daha sistemli və əhatəli yanaşmanı ortaya qoyub, əhalinin maraqlarını daha yüksək səviyyədə nəzərə alıb. Bu fərmanın icrası yüz minlərlə insanın güzəştdən istifadə etməsinə şərait yaratdı. Bu mühüm addım vətəndaşların maddi rifah halını daha da yüksəltmək, onların maliyyə yükünü azaltmaq məqsədi daşıyır".

İqtisadçı-ekspert Pərviz Heydərov bildirdi ki, bank sektorunda müsbət meyllər artıq bir müddətdir müşahidə edilir. Problemli kreditlərin həll olunması buna şübhəsiz ki, əlavə dinamika verməli idi. Lakin bu, belə qısa müddətdə özünü göstərə bilməz. Sadəcə olaraq, banklar bu dəfə köhnə səhvlərini təkrar etməməlidirlər. Əsas fəaliyyət yenə də istehlak kreditləri üzərində köklənəcəksə, bank sektorundakı canlanma sabun köpüyü effekti daşıyacaq. Odur ki, buna yol verilməməlidir: "Bundan əlavə, bankların təklif etdikləri kreditlər üzrə faiz dərəcələri yüksəkdir. Bu vəziyyət dəyişməz olaraq qalır. Açıq deyim, ölkəmizdə banklar kreditləşdirmə fəaliyyəti ilə deyil, sələmçiliklə məşğul olublar və məşğul olmaqda da davam etmək istəyirlər. Ümumiyyətlə, bankların canlanması üçün real sektor da inkişaf etməlidir. Bunsuz mümkün deyil. Burada risq səviyyəsi olduqca yüksəkdir. Hesab edirəm ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bunu tədricən aradan götürməyə imkan verəcək. Odur ki, bank sektorunun sağlam inkişafı yalnız bununla bərabər mümkündür".

*Günel CƏLİLOVA*

**Xəbər verildiyi kimi, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fermerlərə subsidiyaların vahid mexanizm vasitəsilə çatdırılması istiqamətində işlər aparılır. Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən, 2020-ci ildən yeni subsidiya mexanizmi həyata keçiriləcək.**

# Aqrar subsidiyaların dəyişmiş mexanizmi nə verəcək...




*Nicat Nəsirli: "Yeni subsidiya mexanizmi elektron idarəetmədir"*

Məlumat üçün bildirək ki, bu il iyunun 27-də Prezident İlham Əliyev "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Fərman imzalayıb. Sənəd subsidiyaların fermerlərə vahid mexanizm vasitəsilə çatdırılmasını nəzərdə tutur.

Yeni subsidiya mexanizminin əhəmiyyəti barəsində fikir bildirən aqrar sahə üzrə ekspert Nicat Nəsirli "Bakı-Xəbər"ə açıqlamasında bunları qeyd etdi: "Yeni subsidiya mexanizmi elektron idarəetmədir. İndiyə kimi, subsidiyanın verilməsi üçpilləli şəkildə həyata keçirilirdi. Ölkə üzrə 1353-dən çox komissiya subsidiyanı təyin edirdi. Məlumat üçün bildirim ki, subsidiya proqramı 2007-ci ildən Azərbaycanda həyata keçirilir. Kənd təsərrüfatının stimullaşdırılmasında subsidiya bir alət kimi mühüm rol oynayıb. Ancaq son illər keyfiyyət göstəricisində subsidiyanın ciddi təsiri qeydə alınmayıb".

Həmsöhbətimizin sözlərinə görə, yeni subsidiya qaydalarının əsas strateji hədəfi bitkiçilik və heyvandarlıq sahəsi üzrə keyfiyyət göstəricilərinin yüksəlməsidir. Bu səbəbdən də məlum proqramın idarə olunması lazımdır. Subsidiya proqramına daxil olan 400 minə yaxın fermerin bütün təsərrüfat məlumatı elektron sistemə işlənib: "İndiyə qədər fermerlərin özləri subsidiyanın həcmini təyin edirdi. Ancaq indi isə elektron sistemdə fermerin təsərrüfatı xidmətlərinə istiqamətləndirməlidir. Və bu xidmət elektron si-

*"Yeni subsidiya qaydalarının əsas strateji hədəfi bitkiçilik və heyvandarlıq sahəsi üzrə keyfiyyət göstəricilərinin yüksəlməsidir"*

təsərrüfat göstəricilərinə baxılaraq ona subsidiya məbləği təyin olunacaq. Onu da deyim ki, əvvəllər fermerlər subsidiya məbləğinin 100 faizini nağdlaşdıra bilirdi, hətta bəzən ünvanlı şəkildə istifadə olunurdu. Ancaq indi fermer subsidiyanın 25 faizini nağdlaşdıra bilər, 75 faizini isə kənd stemdə görünəcək".

Həmsöhbətimiz bildirdi ki, yeni subsidiya qaydaları bizim istehsalçılara təklif edir ki, korporasiyalar yaratmaq lazımdır.

Korporasiyalaşmanın yeni subsidiya prizmasında üstünlüyü ondan ibarətdir ki, mövsümi qiymət təlatümlərini aradan qaldırmaq mümkün olacaq.

**Bununla da istehsal planlanacaq. Liberal bazar iqtisadiyyatının prinsiplərinə uyğun olaraq, istehsalçılara məhsulların əlçatanlığı təmin olunacaq. Bununla yanaşı, ixtisaslaşma müəyyən olunacaq. Məhsulun hansı rayonda əkilməsi təyin olunacaq: "Danılmaz faktdır ki, regionların iqlim şəraiti və torpağı nəzərə alınmadan əkin əkilirdi. Ancaq yeni subsidiya qaydalarında hansı rayonda nəyin əkilib-əkilməyəcəyi qeyd olunacaq".**

*Günel CƏLİLOVA*

Paytaxtda ictimai mənəviyyat əleyhinə və milli mentalitetə zidd olan hallara qarşı mübarizə gücləndirilir. Bu məqsədlə sentyabrın 2-dən başlayaraq Bakı Şəhər Baş Polis İdarəsinin rəhbərliyi tərəfindən təsdiq olunan Tədbirlər Planına müvafiq olaraq, polisin səlahiyyətləri çərçivəsində konkret vəzifələr müəyyən olunaraq icraya yönəldilib.

*"Azərbaycanı yad təsirlərdən, ölkədə milli mənəviyyatı, mentaliteti qorumaq üçün inzibati metodların tətbiqi olduqca zəruridir"*

# Bakı Şəhər Baş Polis İdarəsinin ictimai sifarişə tam uyğun yeni əməliyyatı...

***Seyid Camal Əzimbəyli:** "Polisin bu yöndə gördüyü tədbirlərə hərtərəfli dəstək verilməlidir"*



Bu barədə açıqlama verən idarənin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev sözügedən məsələ ilə bağlı bir sıra məqamlara toxunub. Onun sözlərinə görə, paytaxt sakinlərindən daxil olan müraciətlərin, müşahidə olunan sosial-neqativ halların təhlilləri göstərir ki, Bakıda fəaliyyət göstərən bəzi əyləncə-istirahət yerlərində - gecə klubları, barlar, otel və motellər, mərkəzi küçələrdə ictimai mənəviyyat əleyhinə, əxlaqazidd hallar var: "Əxlaqazidd olan bütün halların forma və təzahürlərinə qarşı mübarizənin effektivliyini artırmaq üçün milli-mənəvi dəyərlərimizə uyğun olmayan davranışların, ictimai əhəmiyyət kəsb edən digər neqativ halların qarşısının alınması üçün kompleks profilaktik tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Əsasən Səbail rayonu ərazisində yerləşən "Fəvvarələr meydanı" və Nizami küçəsində, Nəsimi rayonu Səməd Vurğun və Nizami küçələrinin kəsişmələrində yüngül əxlaqlı həyat tərzi sürən şəxslərin profilaktikasına dair tərkibi əməliyyat, təhqiqat, ictimai təhlükəsizlik əməkdaşlarından ibarət fasiləsiz fəaliyyət göstərən xüsusi naryad qrupları yaradılıb".

Ümumilikdə, milli mentalitetə zidd olan hallara qarşı zaman-zaman müəyyən maarifləndirici, ictimai qınaq xarakterli işlər görülür. Ancaq bəzən bu kimi addımların atılması yetərli nəticə vermir. Belə olan halda, inzibati xarakterli addımların atılması zərurəti ortaya çıxır. Hansı ki, bununla bağlı ictimaiyyətdə çağırışlar səslənirdi. Ona görə də polisin sözügedən addımları atması həm də sosial və ictimai sifarişdən irəli gəlir. Cəmiyyətdə bununla bağlı sosial sifarişin olması ortadadır. Təsadüfi deyil ki, BŞBPİ-nin məlum qərarı sosial şəbəkələrdə böyük rəğbətlə qarşılanıb. Buna böyük dəstək var və hesab edirlər ki, belə bir addımın atılması mənəvi-əxlaqi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Bununla bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən şərqşünas Seyd Camal Əzimbəyli məlum qərarı alqışladığını bildirdi: "Birmənalı olaraq bunu dəstəkləyirəm və hesab edirəm ki, bu, yerində verilən bir qərardır. Fikrimcə, Azərbaycanda milli-mənəvi dəyərlərə bağlı olan xalqın mütləq əksəriyyəti bunu dəstəkləyir. Çünki biz dəfələrlə bayan etmişik ki, ölkədə mill-mənəvi dəyərlərin təəssübkeşi Azərbaycan dövlətidir. Dünyəvi dövlət olsaq da, milli-mədəni irsimizin də təəssübkeşi Azərbaycan dövlətidir. Azərbaycanı yad təsirlərdən, ölkədə milli mənəviyyatı, mentaliteti qorumaq üçün inzibati metodların tətbiqi olduqca zəruridir. Zərurət yarandığı üçün belə addımların atılması məqsədəuyğundur. Bu kimi məsələlərdə hər zaman dövlətimizin yanındayam. Hesab edirəm ki, hər bir düşünən fikir adamı, övladının gələcəyini düşünən hər bir kəs ölkədə mənəvi dəyərlərin qorunması üçün dövlətin atdığı bütün zəruru addımlara dəstək verməlidir. Milli mentalitetə zidd olan hallara qarşı mübarizədə dövlətin yanında olmalıdır. Polisin bu yöndə gördüyü tədbirlərə hərtərəfli dəstək verilməlidir. Çünki bu kimi məsələlərə son dərəcə diqqət etmək günün tələbidir. Ona görə ki, bütün bunlar uşaqların, gənclərin tərbiyəsinə, əxlaqına, mənəviyyatına təsir edir".

***Vidadi ORDAHALLI***

Artıq müəyyən müddətdir Azərbaycana müxtəlif ölkələrdən gələn miqrantların sayı artan xətt üzrə inkişaf edir. Son dövrlərdə isə ölkəmizə gələn miqrantların sayı gedənlərin sayını bir neçə dəfə üstələyir. Eyni zamanda, Azərbaycandan miqrasiya edənlərin sayında ciddi azalma qeydə alınır. Son aylarda isə Azərbaycana gələnlərin sayı gedənlərlə müqayisədə 3 dəfə çox olub.

# Azərbaycanda işləməyə gələn xaricilərin sayı artır

***Azər Allahverənov:** "100-dən çox ölkənin vətəndaşı Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olur"*



Statistik rəqəmlərə görə, Azərbaycanda 2018-ci ildə əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin sayı 30 mindən bir qədər çox olub. Məlumatlara görə, Azərbaycana işləmək üçün gələn xaricilər arasında hindistanlılar üstünlük təşkil edir.

Miqrasiya sahəsi üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, işləmək üçün ölkəmizə gələn xarici vətəndaşların sayı artıb: "2015-ci ildə Azərbaycana işləmək üçün gələn hindistanlıların sayı 624 olub. 2016-2017-ci illərdə isə bu rəqəm 2000-dən çox olub. Hindistanlılarla yanaşı, Türkiyə, Gürcüstan və Rusiya vətəndaşları da ölkə ərazisində əmək fəaliyyəti ilə məşğul olurlar. Bununla yanaşı, Özbəkistan və İran vətəndaşları qeydiyyatda olan əcnəbilər siyahısındadırlar. Məlumat üçün bildirim ki, 100 dən çox ölkənin vətəndaşı Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olur".

*"Hindistanlılarla yanaşı, Türkiyə, Gürcüstan və Rusiya vətəndaşları da ölkə ərazisində əmək fəaliyyəti ilə məşğul olurlar"*

Ekspert onu da vurğuladı ki, ölkəmizə işləməyə gələnlərin sayı ildən-ilə artır: "Təqribən yeddi minə yaxın əcnəbi əmək kvotası çərçivəsində əmək fəaliyyəti ilə məşğul olub. Amma Azərbaycanda işləyən xaricilərin digər bir qismi isə əmək kvotasından kənar çalışır. Faktiki olaraq, belələrinin sayı 30 mindən artıq olub. Bunun kütləvi hal aldığını demək olmaz. Çünki Azərbaycanın əmək bazarında kifayət qədər ciddi rəqabət var. Həm də qanunvericiliyimiz ilk növbədə yerli mütəxəssislərin işlə təmin olunmasına şərait yaradır. Yerli bazarda bu və ya digər vakansiya yerinə mütəxəssis tapılmadığı halda əcnəbi işçilərə üz tutulur.

Azərbaycanda daha çox tikinti sektorunda, neft-qaz və xidmət sahəsində əcnəbilər əmək fəaliyyəti ilə məşğul olurlar. Amma son zamanlar kənd təsərrüfatı sahəsində də aqronom və digər vəzifələrdə işləyən əcnəbilərə də rast gəlirik".

***Günel CƏLİLOVA***

# Tələbələr faktoru kirayə mənzil bazarında "qiymət inqilabı" başladır

**Əvvəldən də proqnozlaşdırıldığı kimi, yeni tədris ilinin başlanması fonunda paytaxtın kirayə bazarında qiymətlərdə əhəmiyyətli yüksəliş qeydə alınır. Hazırda kirayə mənzil bazarında zonalar üzrə tələbatda və qiymətlərdə dəyişikliklər baş verir.**

Aktivlik mərkəzdən şəhər kənarına doğru hərəkət edir. Tələbələrin gəlişi avqustun sonları və sentyabrda kirayə mənzil bazarında xüsusi canlanma yaradır.

Əmlak bazarı üzrə ekspert Nüsrət İbrahimli də qeyd edir ki, ümumiyyətlə, kirayə mənzil bazarının əsas istehlakçıları tələbələrdir. Onun sözlərinə görə, paytaxtda aparılan tikinti işləri kirayə mənzil bazarına təsir edib. N.İbrahimli vurğulayıb ki, əvvəllər "Sovetski, Xutor, Kubinka, Alatava" kimi ərazilər üstünlük təşkil edirdisə, son bir neçə il ərzində bu ərazilərdə söküntünün həcmi artdığından, kirayə mənzil tutmaq istəyənlər Yeni Yasamal, mikrorayon, Badamdar ərazilərinə üz tuturlar. Ekspert əlavə edib ki, yeni tikililərdə də mənzil kirayələməyə maraq göstərənlər var. Amma bu, binanın yerləşdiyi ərazidən daha çox asılıdır. Əmlak bazarı üzrə ekspert qeyd edib ki, yeni tikilən binalar baha qiymətə olduğundan, ümumi tələbə kontingentinin tələblərinə bir çox hallarda cavab vermir. Bu baxımdan tələbələr yaxın ərazilərdən uzaq ərazilərə köçürlər. Məsələn, əvvəllər tələbələr Əhmədli və "20-ci Sahə"yə maraq göstərmirdilər. Amma son dövrlər maraq artıb. Ekspert qeyd edib ki, kirayə mənzil bazarına olan tələbat şəhərin mərkəzi hissələrindən şəhərkənarı zonaya keçib. Onun sözlərinə görə, bu zonada aktivliyin yüksəlməsi qiymətlərin də artmasına təsir göstərib.




Bütün bunlar nəticəsində isə Bakının kirayə mənzil bazarında qiymət artımı özünü aydın şəkildə büruzə verir. Qeyd olunduğu kimi, paytaxtda kirayə mənzil qıtlığının və qiymətlərdə artımın əsas səbəbi köhnə yaşayış binalarının şəhərsalma tədbirləri ilə əlaqədar sökülməsidir. Ekspertlər bildirirlər ki, köhnə tikililər kirayə mənzil bazarında təklif portfelinin əsasını təşkil edir. İndi isə şəhərin yenilənməsi fonunda köhnə mənzillərin sökülməsi ilə bağlı ilbəil kirayə mənzil bazarında təklif azalır. Eyni zamanda son iki ildə müşahidə olunan tendensiya ondan ibarətdir ki, söküntü işləri ilə əlaqədar kirayə mənzil bazarında ev qıtlığı yaranıb. Üstəlik, tələbələr dərs ilini başa vurduqdan sonra mənzili boşaltmırlar. Onlar aylıq kirayə haqqını ödəyərək mənzili boş saxlayırlar. Bu da yeni gələn tələbələr üçün kirayə mənzil qıtlığına səbəb olur. Belə vəziyyət kirayə evlərə tələbi əhəmiyyətli dərəcədə artırır. Təzə mənzillərdə ev alanlar isə ya buranı kirayə vermir, ya da çox baha qiymət təklif edirlər. Yeni tikili binalarda, şəhərin mərkəzində və metro stansiyalarına yaxın yerlərdə kirayə təklif edilən mənzillərin qiyməti çox yüksəkdir. Metrostansiyalar yaxınlığında yerləşən yeni tikili binalarla köhnə binalarda verilən kirayə evlərin qiymətində isə çox cüzi fərq var.

Onu da bildirək ki, kirayə mənzil bazarında qiymət artımının bir səbəbi də ali məktəblərə qəbul olunan abituriyentlərin sayının artmasıdır. Məsələn, 2018-2019-cu tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə qəbul üçün 45159 yer ayrılıb. Bu il ali təhsil müəssisələrinə qəbul planı 2018-ci illə müqayisədə daha çox olub. Ümumilikdə, 2807 yer və ya 6.22% artım olub. Dövlət sifarişi üzrə isə plan yerlərinin sayı kəskin artırılıb. 47966 plan yerindən 20189 yer dövlət sifarişli olub və ötən illə müqayisədə bu, 7985 yer artım deməkdir. Təbii ki, bu da kirayə mənzil bazarına tələbatı artırır. Qiymətin yüksək olmasına təsir edən başqa bir amil isə turistlərlə bağlıdır. Ölkəyə gələn tursitlərin sayının artması kirayə evlərə tələbi və təbii olaraq qiymətləri də artırır. Hesab edilir ki, kirayə evlərə tələblə bağlı məsələnin həlli istiqamətində indidən müvafiq addımlar atılmasa, qarşıdakı dövr ərzində qiymətlərin daha da yüksəlməsini gözləmək olar. Problemin həlli üçün isə variantlar müxtəlifdir. Məsələn, çoxdan müzakirə edilən, gözlənilən tələbə şəhərciklərinin inşası böyük tələbə kütləsinin rahat yerləşməsini təmin edə bilər. Məhz bu zaman kirayə bazarı əhəmiyyətli dərəcədə boşalar. Digər çıxış yolu dövlətin mənzil bazarına müdaxiləsində ola bilər. Yəni dövlət sifarişi ilə ucuz, əlçatan mənzillərin inşası reallaşmalıdır. Bu evlər satmaq yox, kirayə vermək üçün tikilməlidir. Bununla ekspertlərə görə, həm mənzil bazarında qiymət enərdi, həm də kasıb təbəqənin insanları münasib qiymətə mənzil kirayə etmiş olardılar. Eyni zamanda, binaları inşa edib sonra satışa çıxaran tikinti şirkətlərinə dəstək olmaqla kirayə bazarını canlandırmaq da mümkündür. Belə ki, inşa edilən binada mənzilin 30 faizini münasib qiymətə icarəyə verən şirkətə vergidə endirim edilməsi burada müəyyən rol oynaya bilər. Xatırladaq ki, müxtəlif xarici ölkələrdə belə təcrübələrdən geniş istifadə olunur. Azərbaycanda da artıq analoji təcrübələrin tətbiqi zərurət sayılır. Əks təqdirdə yuxarıda qeyd olunduğu kimi, kirayə mənzil bazarında qiymət artımının davam etməsi qaçılmazdır. Özü də əvvəlki dövrlərdən fərqli olaraq, kirayə evlərdə qiymət artımı qeydə alınsa da, sonradan enmələr müşahidə olunmur. Ekspertlər Bakıda söküntü işlərinin davam etdiy müddətdə bu tendensiyanın dəyişməyəcəyini bildirir.

***Tahir TAĞIYEV***

# Azərbaycanda dövlət qurumlarına kiberhücumlar sıfır həddə endirilib

**Kibertəhlükə bütün dünyada böyük həyəcan doğuran bir cinayətkarlıq növüdür ki, dünyanın müxtəlif dövlət təşkilatları, bankları, qurumları bundan ciddi zərər çəkirlər. Azərbaycanda da bu hallar mövcud olub. Məlum olduğu kimi, ölkəmizdə kibercinayətkarlığa qarşı ciddi mübarizə tədbirləri həyata keçirilir.**



***Osman Gündüz:** "Bu bir tərəfdən Azərbaycanda informasiya təhlükəsizliyi ilə bağlı işlərin gücləndirilməsi ilə əlaqədardır"*

Elə bu tədbirlərin, görülən davamlı işlərin nəticəsidir ki, Azərbaycanda dövlət qurumlarının kibertəhlükəsizliklə bağlı etdiyi sorğuların sayı azalıb.

Rəsmi məlumata görə, bu ilin avqust ayında Azərbaycanda kompyuter təhlükəsizliyi ilə bağlı dövlət strukturları tərəfindən açılmış sorğuların sayı iyul ayı ilə müqayisədə 20,6% azalaraq 280 ədəd təşkil edib. Mətbuatın yaydığı statistikaya görə, avqust ayı ərzində mərkəzə daxil olan sorğulardan 91,7%-nə baxılıb və təmin edilib.

Kibercinayətkarlığa qarşı Elektron Təhlükəsizlik Mərkəzi tərəfindən informasiya təhlükəsizliyi üzrə audit keçirilərək, müvafiq dövlət qurumlarına 23 hesabat təqdim edilib. Mərkəzdən verilən məlumata əsasən, cari ilin avqust ayında Azərbaycan internet məkanında dövlət qurumlarına aid 11 domen və 18 subdomen qeydiyyatdan keçib.

Ümumilikdə, cari ilin yanvar-avqust aylarının nəticələrinə görə, kompyuter təhlükəsizliyi ilə bağlı müraciətlərin ümumi sayı 2509 təşkil edib. Qeyd olunan dövr ərzində ümumi sorğunun 93,6%-nə baxılıb və təmin edilib. Bu müddət ərzində aparılan informasiya təhlükəsizliyinin yoxlanışı əsasında 162 hesabat hazırlanaraq müvafiq strukturlara göndərilib. Yanvar-avqust ayları ərzində Azərbaycanın internet seqmentində 35 domen və 62 subdomen qeydiyyata alınıb.

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda dövlət qurumlarının kibertəhlükəsizliklə bağlı etdiyi sorğuların sayının azalması bu sahədə həyata keçirilən tədbirlərlə bağlıdır. "Hesab edirəm ki, bu bir tərəfdən Azərbaycanda informasiya təhlükəsizliyi ilə bağlı işlərin gücləndirilməsi ilə əlaqədardır. Son dövrlər ölkəmizdə dövlət qurumlarında ciddi mərkəzləşdirmə aparılıb. Bunula əlaqədar xüsusi dövlət qurumu formalaşdırılıb, eyni zamanda da Prezidentin fərmanı ilə informasiya təhlükəsizliyi sahəsində görülən işlərin koordinasiyası üçün dövlət komissiyası da yaradılıb. Ayrıca bir dövlət komissiyası fəaliyyət göstərir ki, o da bütövlükdə, informasiya təhlükəsizliyi ilə bağlı işlərin qaydaya salınması, koordinasiya edilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, hüquqi-normativ bazanın hazırlanması sahəsində işlər görür. Hazırda bu sahədə iki əlavə sənəd də hazırlanır".

*"Son dövrlər ölkəmizdə dövlət qurumlarında ciddi mərkəzləşdirmə aparılıb"*

O.Gündüzün sözlərinə görə, bu sənədlərin hazırlanması prosesi ləng gedir. O qeyd etdi ki, Prezident fərmanı ilə kibercinayətkarlığa qarşı mübarizə və informasiya təhlükəsizliyi ilə bağlı konsepsiya hazırlanmalı idi. "Lakin bu sənədlərin hazırlanma prosesi ləng gedir. Halbuki, Prezidentin fərmanında nəzərdə tutulan müddət çoxdan başa çatıb. Bu sənədlər artıq qəbul olunmalı idi. Ancaq indiyə qədər bu sənədlər ictimai müzakirəyə də çıxarılmayıb ki, bu sənədlərdə nələrin əks olunduğunu ictimaiyyət də bilsin. Bununla belə, qeyd edtmək lazımdır ki, son dövrlər bu istiqamətdə bir xeyli iş görülüb. Azərbaycanda dövlət qurumlarının kibertəhlükəsizliklə bağlı etdiyi sorğuların sayının azalması həm də bu istiqamətdə görülən işlərlə bağlı ola bilər" - deyə O.Gündüz dedi.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 27 iyun 2019-cu il tarixində "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli, 3851 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***İradə SARIYEVA***

# İllər öncə sektaların apardığı təhlükəli hədələmə kampaniyaları sosial şəbəkələrdə geri qayıdır

**Gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilən sosial şəbəkələr, xüsusən də "Facebook", "İnstagram" və "WhatsApp" ən çox istifadə etdiyimiz resursdur. Bir sıra hallarda bu platformaların istifadəçiləri xoşagəlməz hallarla, arzuedilməz mesajlarla qarşılaşırlar.**




***Fatimə Hacıbəyli:** "WhatsApp" və Facebook"dan aldığımız bu cür mesajların hazırlanmasında və dövriyyəyə buraxılmasında bəzi sektaların əlinin olması şübhə doğurmur"*

Son zamanlar "Facebook" və "WhatsApp" istifadəçiləri tanımadıqları hesablardan həyəcan doğuran, vahimə yaradan mesajlar alırlar. Maraqlıdır ki, bu mesajlar həm Azərbaycan, həm də rus dillərində göndərilir. Göndərilən mətnlərdə qeyd edilir ki, bu mesajı 10 nəfərə gondərməsən başına faciə gələcək, bəla ilə üzləşəcəksən, yaxud bu mesajı dostlarına göndərsən varlanacaqsan, pul tapacaqsan, hətta burada belə bir fikir də qeyd edilir ki, mesajı alan şəxs onu silərsə, paylaşmazsa, bu onun üçün pisliklərlə nəticələnəcək və s. Onu da qeyd edək ki, bu platformalarda hesabı olanların bir çoxu həmin mesajlardan təsirlənərək onları "kopyalayıb" dostluq siyahılarında olan şəxslərə göndərirlər. Deyərdik ki, həm "Facebook", həm də "WhatsApp" istifadəçiləri gün ərzində müxtəlif insanlardan bu səpkili mesajlar alırlar.

Ekspertlər hesab edirlər ki, bu cür mesajların yayılması konkret qruplarla bağlıdır. Əksər mütəxəssislərə görə, bu səpkili mesaj mətnlərini göndərənlər hansısa sektaların, cərəyanların da təmsilçiləri ola bilərlər. Yəni onlar bu mətnləri bir neçə nəfərə göndərirlər və paylaşmayacaqları təqdirdə onları "gözləyən təhlükə" ilə bağlı bu istifadəçiləri xəbərdar edirlər. Bəzi istifadəçilər isə əndişəyə düşdükləri üçün o mesajları paylaşır, başqalarına göndərirlər.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində bildirdi ki, "Facebook" və "WhatsApp" istifadəçiləri bu cür mesajlara əhəmiyyət verməməlidirlər. O hesab edir ki, bəzi dini sektalar insanları təşvişə salmaq və öz çürük ideyalarını təbliğ etmək üçün bu vasitələrdən istifadə edirlər. Qondarma dini sektaların keçən əsrin 90-cı illərindən bu günə kimi zərərverici fəaliyyətlə məşğul olduqlarını deyən F.Hacıbəylinin sözlərinə görə, hələ keçən əsrin sonlarında dini sekta təmsilçiləri tərəfindən müxtəlif məzmunlu məktublar yayılırdı. "Sosial şəbəkələrin açıq platforma olması, burada istənilən paylaşma ilə bağlı heç bir qadağanın olmaması sektaların da fəaliyyinin aktivləşməsinə səbəb olub. Vaxtilə qeyri-ənənəvi cərəyanların üzvləri rayon-rayon, kənd-kənd gəzib müxtəlif məzmunlu məktublar paylayırdılar. Həmin məktublarda dünyanın axırının çatdığı, insanları böyük təhlükələrin gözlədiyi haqqında məlumat verilirdi və qeyd edilirdi ki, bu məktubu yazıb 7 adama göndərməsəniz övladınız, ata-ananız, yaxınlarınız öləcək və s. Onlar bununla öz çürük ideyalarını camaat içində yayıb vahimə yaratmaq istəyirdilər. O zamanlar nəinki sadə insalar, hətta həkimlər, müəllimlər, mühəndislər də o məktubların üzünü köçürüb yayırdılar. Keçən əsrin 90-cı illərinin əvvəllərində həmin sektalar belə məktublardan istifadə edərək insanları özlərinə cəlb etmək istəyirdilər. Sonrakı dönəmlərdə bu kimi hallarla bağlı maarifçilik tədbirlərinin həyata keçirilməsi nəticəsində bu məktublar yığışdırıldı. İndi isə həmin sektalar sosial şəbəkələrdə öz fəaliyyətlərini davam etdirirlər. Onlar sosial şəbəkə istifadəçilərinə dostluq sorğusu göndərir, əgər dostluqları qəbul edilərsə, bu kimi mesajlar yazmağa başlayırlar. Deməzdim hamı, ancaq psixoloji vəziyyəti həssas olan insanlar onların çağırışlarına özləri də bilmədən cavab verirlər. "WhatsApp" və "Facebook"dan aldığımız bu cür mesajların hazlanmasında və dövriyyəyə buraxılmasında bəzi sektaların əlinin olması şübhə doğurmur. Gün ərzində yüzlərlə istifadəçi bu məzmunda mesajlar, səs yazıları alır və bəzi insanlar bundan təşvişə düşürlər".

*"Gün ərzində yüzlərlə istifadəçi bu məzmunda mesajlar, səs yazıları alır və bəzi insanlar bundan təşvişə düşürlər"*

F.Hacıbəyli hesab edir ki, istifadəçilər belə mesajlara əhəmiyyət verməməlidirlər. Onun sözlərinə görə, bu mesajlar birbaşa xurafatın, cəhalətin yayılmasına xidmət edir. Bəzi qeyri-ənənəvi dini sektaların üzvlərinin apardığı "maarifçilik" işlərinin insanlara zərər vurduğunu deyən F.Hacıbəylinin fikrincə, onların sosial şəbəkələrdəki mənfi fəaliyyəti məhdudlaşdırılmalıdır.

***Leyla QARAXANLI***

№ 155 (4053) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

4 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# Marsdakı metanın sirri tapıldı...

**Kosmik tәdqiqatçılar Qırmızı planetin atmosferindәki metanın miqdarını dәqiqlәşdirә bildiklәrini vә konsentrasiyasında dәyişiklik dinamikasını aydınlaşdırdıqlarını söylәyiblәr.**

"Ted.az" bildirir ki, Mars sәthindә yerlәşәn nәhәng kraterdәn ayrılan metan, planetin sәthinin altındakı hәyatın vә ya digәr fәaliyyәtin mövcudluğunu göstәrә bilәr. Qeyl krateri 154 kilometr diametrә malikdir vә onun yaşı, tәxminәn, 3,8 milyard il qiymәtlәndirilir. Bu yaxınlarda Avstraliya Milli Universitetinin әmәkdaşları bütün seylәrini Qırmızı planetdәki metanın sirrlәrini açmağa yönәldiblәr. Tәdqiqat zamanı onlar Mars atmosferindә metanın miqdarının qiymәtlәndirilmәsini vә konsentrasiyasında dәyişiklik dinamikasını aydınlaşdırmağa müvәffәq olublar. Mәlum olub ki, metanın konsentrasiyası daha әvvәl mәlum olduğu kimi yalnız mövsümdәn asılı olaraq deyil, hәr sutka әrzindә dә dәyişir.



## Elan

Bәrdә şәhәri, Nizami küçәsindә Şadlinski Vüqar Yunus oğlunun adına olan torpaq sahәsinin 61001004201394 saylı plan vә ölçü sәnәdi itirildiyi üçün etibarsız sayılır.

Baki şәhәr sakini Tağıyeva Leyla Meyti qızına mәxsus olan, Bakı şәhәri, Xәtai rayonu, Nәsrәddin Tusi küçәsi, ev 16, mәnzil 28-in sәnәdi itdiyi üçün etibarsız sayılır.

Sultanzadә Azad Әlsoltan oğlunun adına, Abşeron rayonu, Hökmәli qәsәbәsindә yerlәşәn torpaq sahәsinә verilmiş çıxarış (seriya RX №0374922) itdiyi üçün etibarsız sayılır.

"Az AVS" MMC (VÖEN - 1004199751) "Az AVS" QSC-nә çevrildiyini elan edir.

"AVALQN - 12" MMC (VÖEN 6100430811) "AVALON-12" QSC-nә çevrildiyini elan edir.

"LOTUS CO" MMC (VÖEN - 1904468381) "LOTUS SO" QSC-nә çevrildiyini elan edir.

Allahverdiyev Bәxtiyar Musa oğluna Azәrbaycan Respublikası Daxili İşlәr Nazirliyi tәrәfindәn verilmiş "Müharibә veteranı" vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Quliyev Müşfiq Xudaverdi oğluna mәxsus "Әfqanıstan müharibәsi veteranı" vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Nәcәfov Yaşar Qasım oğlunun adına 1999-cu ildә Azәrbaycan Respublikası Daxili İşlәr Nazirliyi tәrәfindәn verilmiş 015299 №li "Müharibә veteranı" vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Muxtarov Aynur Yusif qızına mәxsus, Samux rayonu, Nәbiağalı qәsәbәsindә yerlәşәn 0.08 ha torpaq sahәsinin №1512002766, 28.03.2012-ci il tarixli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Sobzalıyev Şamil Sobzalı oğluna Azәrbaycan Respublikası Daxili İşlәr Nazirliyi tәrәfindәn verilmiş 025117 №li "Müharibә veteranı" vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

## İnsanların әcdadının görüntüsü yayıldı - 3,8 milyon yaşı var



**Elm alәmi 2016-cı ildә Efiopiyada tapılan kәllәnin aşağı düşmәsinә gәtirib çıxarır.**

Mütәxәssislәr 3,8 milyon il yaşı olduğu tәxmin edilәn kәllә sümüyünü incәlәdikdәn sonra ilk insanın necә göründüyünü modellәşdirib. "Teleqraf.com" xәbәr verir ki, 3,8 milyon il yaşı olan kәllә Efiopoyanın Voronso-Mille mәntәqәsindәn tapılıb. MRD olaraq bilinәn vә Efiopiyanın Afar bölgәsindә tapılan kәllәnin yaxşı vәziyyәtdә olduğunu bildirәn mütәxәssislәr "bu kәllәnin 4,1 - 3,8 milyon il әvvәldәn qaldığı tәxmin olunur" açıqlamasını veriblәr. Mütәxәssislәr kәllәni modellәşdirdikdәn sonra insanların әcdadının necә göründüyünü ortaya çıxarıblar.

## Smartfonlar beyinә necә ziyan vurur?

**ABŞ-ın Ratger Universiteti alimlәrinin yeni tәdqiqatları göstәrdi ki, әqli gәrginliyә fasilә vermәk üçün mobil telefondan istifadә beyni dincәltmir vә mәhsuldarlığın aşağı düşmәsinә gәtirib çıxarır.**

"Ted.az" bildirir ki, müәlliflәrdәn biri olan Terri Kurtsberq qeyd edib ki, smartfonumuza, hәtta bir baxış bәsdir ki, SMS-lәri yoxlayaq, kiminlәsә yazışaq, internetә girmәk vә s. arzusu yaransın.

Elm adamları 414 kollec tәlәbәsindәn ibarәt bir qrup üzәrindә araşdırma aparıblar. Onlardan 20 tapmaca üzәrindә işlәmәk tәlәb olunub. Fasilәdә iştirakçılardan mini-istirahәtini necә keçirmәk istәdiklәrini bildirmәk tәklif olunub: kompüterdә, kağız vәrәqin üzәrindә vә ya smartfonda. Qrupun dördüncü hissәsi, ümumiyyәtlә, zehni tapşırıqlar arasında fasilә vermәyib. Belә mәlum olub ki, fasilәdә telefonlardan istifadә edәn tәlәbәlәr, istirahәt etmәyiblәr, әksinә, zehni yorğunluq hiss ediblәr vә daha işlәyә bilmәyiblәr. Kurtsberq onu da vurğulayıb ki, biz smartfonlara çox zehni enerji sәrf edirik. Düşünә bilәrik ki, telefonla fasilә dә bir istirahәtdir, lakin әksinә, bizi yayındırır vә iş tapşırıqlarına fokuslanmağa mane olur. Bundan әlavә, alimlәr qeyd edirlәr ki, smartfonlara hәddәn artıq aludәçilik piylәnmә riskini artırır.




**Qoç** - Uğurlu gündür. Hadisәlәrin normal axarı sizә bәyәndiyiniz işi seçmәyә imkan verir. Qәtiyyәt vә iradә ilә çalışsanız, sürәtli irәlilәyişә nail ola bilәrsiniz. Günün ikinci yarısında problemlәrin hәllinә yaradıcı yanaşın.


**Buğa** - Bütün mühüm işlәri günün ikinci yarısına planlaşdırın. Günün ilk yarısı danışıqlar, toplantılar, tәlәsik işlәrlә zәngin olacaq. Axşam saatları qohumlarla ünsiyyәt, ailә tәdbirlәri, alış-veriş üçün uğurludur.


**Әkizlәr** - Sürәtli, qәtiyyәtli olun. Mәqsәdә doğru aparan yolda qarşınıza çıxan maneәlәrdәn çәkinmәyin. Uzun-uzadı müzakirәlәr vә illüziyalara qapılmaq sizә yalnız zәrәr verә bilәr. Sağlam mәntiqi unutmayın.


**Xәrçәng** - Oyun qaydaları sizi tәmin etmirsә, onları dәyişmәyә çalışın. Gәlir vә mәnfәәt vermәyәn işlәrdәn imtina edin. Sizinlә әlaqә saxlayan insandan yeni iş, layihә vә ya sifariş ala bilәrsiniz.


**Şir** - Yaxın gәlәcәklә bağlı planlarınızda zәruri dәqiqlәşdirmәlәr aparın. Peşәkar fәaliyyәt müstәvisindә irәlilәyişi prioritet sayın. İşdә rәhbәrliyin tapşırıqlarını vaxtında yerinә yetirin, laqeyd vә soyuqqanlı olmayın.


**Qız** - Yetәrincә mәhsuldar vә uğurlu gündür. Qarşınıza konkret mәqsәdlәr qoyubsunuzsa, onları reallaşdırmaq üçün maksimum sәy göstәrin. Mühüm vә mәsuliyyәtli qәrar qәbul etmәkdәn qorxmayın.


**Tәrәzi** - Xarizmatik, aktiv vә müdrik insanla çalışsanız, mәqsәdә daha sürәtlә çatacaqsınız. Hәmkarlar, hәmfikirlәrlә işlәmәk mәslәhәtdir. Radikal layihә vә ya ekstravaqant ideyaların reallaşması üçün yaxşı zaman deyil.


**Әqrәb** - Günün ilk yarısında karyera ilә bağlı mәsәlәlәr ön plana çıxacaq. İşdә rәhbәrliklә münaqişә etmәyin. Bilik vә bacarıqlarınızı nümayiş etdirin. Tәcrübәnizdәn yararlanın.


**Oxatan** - Birmәnalı olmayan gündür. Yaxşı xәbәrlәrlә yanaşı, әsәblәrinizi gәrә bilәcәk mәlumatlar da ala bilәrsiniz. İndinin hadisәlәri ötәnlәrdә yaşanmışlarla sıx bağlıdır. Bir qәdәr әvvәl çәkdiyiniz zәhmәt mәntiqi nәticәsini verәcәk.


**Oğlaq** - Karyeranızı düşünürsünüzsә, inkişaf etmәk vә daha çox qazanmaqla bağlı planlar hazırlayırsınızsa, peşәkar fәaliyyәt müstәvisindәki problemlәri hәll edin. İşdә rәhbәrlik tәkliflәrinizi dinlәmәk istәmәyәcәk.


**Dolça** - Günün ilk yarısından әn çәtin problemlәri izafi zәhmәt çәkmәdәn hәll edә bilәcәksiniz. Aktiv olun, rәqiblәrin sizi üstәlәmәsinә, geridә qoymasına imkan vermәyin. Mәqsәdә doğru aparan yolda çeşidli problemlәr yarana bilәr.


**Balıqlar** - Ailә işlәri vә evlә bağlı qayğıları çözmәyә başlayın. Ailә üzvlәrinin tәlәblәrini, istәklәrini nәzәrә alın. Yaxın gәlәcәklә bağlı planları müzakirә edin, mümkün perspektivlәri nәzәrdәn keçirin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Ünsiyyәt ömrü uzadır



**Dostlarla, yaxın insanlarla ünsiyyәt, mütәmadi görüşlәr ömrün uzanmasına tәsir edir, qocalma prosesini lәngidir.**

"E-tibb.az" bildirir ki, London Universitet Kollecinin bir qrup tәdqiqatçısı 50 yaşdan 90 yaşa kimi 7304 nәfәrin hәyatını tәhlil etdikdәn sonra bu qәnaәtә gәlib ki, yaxınları ilә ünsiyyәtә üstünlük verәnlәrin sağlamlığı daha möhkәm olur. Tәdqiqat nәticәsindә o da mәlum olub ki, özünü gümrah hiss edәn insanların 73%-dәn çoxu hәftәdә azı bir dәfә dostları ilә görüşür, muzeylәrә, teatrlara, kilsәlәrә, idman zallarına gedir vә ictimai tәşkilatlarda fәaliyyәt göstәrirlәr. Nәticәdә, hәmin insanların sәhhәti pislәşmir, әksinә, hәyat onlara daha çox sevinc bәxş edir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.